# 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür!

*Təhsil millətin gələcəyidir!*

*Heydər Əliyev*


# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

30 dekabr 2025-ci il №49 (9155) www.muallim.edu.az muallim@media.edu.az


**Prezident İlham Əliyevin 22 dekabr 2025-ci il tarixli Sərəncamı ilə 2026-cı il "Şəhərsalma və Memarlıq İli" elan edilib**

# İşğaldan azad edilmiş ərazilərimizdə müasir təhsil infrastrukturu yaradılır






## Son 5 il ərzində bizim bayrağımız qalib ölkənin bayrağı kimi beynəlxalq arenalarda qaldırılır

**Bizim siyasətimizin əsas istiqamətlərindən biri də gəncləri sağlam ruhda tərbiyə etməkdir, vətənpərvərlik ruhunda tərbiyə etməkdir ki, gənclər Vətən sevgisi ilə böyüsünlər, tərbiyə alsınlar və beləliklə, ölkəmizin inkişafı daimi olsun, əbədi olsun. Əlbəttə ki, burada əsas amil cəmiyyətdə mövcud olan ab-havadır. Bu da çox müsbətdir. Bizim xalqımız böyük dərəcədə həmrəylik, vətənpərvərlik göstərir və son illərin hadisələri bunu bir daha təsdiqləyir. Gənclərin fiziki hazırlığı, mənəvi saflığı vəhdət təşkil etməlidir. Məhz o halda ölkə uğurla inkişaf edə bilər. İdmanın isə gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsində çox böyük önəmi var. Hər dəfə bizim idmançılarımız Dövlət Bayrağını beynəlxalq yarışlarda qaldıranda əlbəttə ki, hər birimiz qürur hissi keçiririk. Son 5 il ərzində bizim bayrağımız qalib ölkənin bayrağı kimi beynəlxalq arenalarda qaldırılır.**

Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyevin dekabrın 26-da keçirilən 2025-ci ilin idman yekunlarına həsr olunan mərasimindəki çıxışından

## QARABAĞ CƏLB EDİR BİZİ

**Dünən Xankəndidə Qarabağ Universitetinin yeni korpusunun açılışında idim. Tamamilə sıfırdan tikilmiş yeni, gözəl binadır. Maraqlanıram ki, burada yeni tədris prosesi necə gedir? Tələbələr, müəllimlər. Müəllimlərin bəziləri xaricdən, bəziləri isə Azərbaycanın müxtəlif yerlərindən gəlir dərs deməyə. Mən maraqlanıram ki, bəs motivasiya nədir? Onları nə cəlb edir? Mənə deyirlər ki, Qarabağ cəlb edir bizi.**

Prezident İlham Əliyevin dekabrın 24-də Ağdam şəhərində 2-ci yaşayış kompleksinin açılışında sakinlərlə görüşündəki çıxışından

## Prezident İlham Əliyev Kərkicahan qəsəbə 1 nömrəli tam orta məktəbin binasının əsaslı təmirdən sonra və Qarabağ Universitetinin Biznes və iqtisadiyyat fakültəsinin binasının açılışlarında iştirak edib, Mühəndislik fakültəsinin binasının təməlini qoyub



# İşğaldan azad edilmiş ərazilərimizdə müasir təhsil infrastrukturu yaradılır





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də Xankəndi şəhərinin Kərkicahan qəsəbə 1 nömrəli tam orta məktəbin binasının əsaslı təmirdən sonra açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına görülmüş işlər barədə məlumat verdi.

Bildirildi ki, 624 şagird yerlik məktəbin binasında əsaslı təmir işləri yüksək səviyyədə və qısa müddətdə həyata keçirilib. Burada ümumilikdə 17 sinif otağı, laboratoriyalar, STEAM, informatika, hərbi hazırlıq, biologiya, kimya, fizika, texnologiya, dərnək, məktəbəqədər hazırlıq otaqları, kitabxana, oxu, idman və akt zalları, yeməkxana müəllim və şagirdlərin ixtiyarına veriləcək. Binadakı otaqların hamısı zəruri tədris vəsaiti ilə təchiz edilib. Bundan başqa, məktəbin həyətyanı sahəsində açıq idman meydançası da yaradılıb. Bir sözlə, burada təlim-tədrisin yüksək səviyyədə həyata keçirilməsi üçün hərtərəfli imkanlar mövcuddur.

Qeyd edək ki, müasir təhsil infrastrukturunun yaradılması işğaldan azad edilmiş ərazilərimizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı yenidənqurma işlərinin vacib istiqamətlərindən biridir. Azad edilmiş torpaqlarımızda təhsil ocaqlarının müasir layihələr əsasında inşası, onların zəruri tədris avadanlığı ilə təchizi, fənn kabinetlərinin, laboratoriyaların, idman infrastrukturunun yaradılması bu müəssisələrdə çalışan müəllimlərin və təhsil alan şagirdlərin hərtərəfli şəraitlə təmin olunmalarına hədəflənib. Bütün bunlar, eyni zamanda, müəllimlərin və şagirdlərin doğma yurdlarına qayıdışını sürətləndirir, həmçinin işğaldan azad olunmuş torpaqlarımızda sosial həyatın canlanmasına töhfə verir.







## Prezident İlham Əliyev Kərkicahan qəsəbə 1 nömrəli tam orta məktəbin binasının əsaslı təmirdən sonra və Qarabağ Universitetinin Biznes və iqtisadiyyat fakültəsinin binasının açılışlarında iştirak edib, Mühəndislik fakültəsinin binasının təməlini qoyub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də Xankəndi şəhərində Qarabağ Universitetinin Biznes və iqtisadiyyat fakültəsinin yeni inşa olunmuş binasının açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına binada yaradılmış şərait barədə məlumat verildi.

Bildirildi ki, Qarabağ Universitetinin Biznes və iqtisadiyyat fakültəsi müasir akademik mühitin formalaşdırılması istiqamətində ardıcıl şəkildə inkişaf edən əsas struktur bölmələrdən biridir. Fakültədə hazırda 20 professor-müəllim, inzibati və texniki heyət üzvü fəaliyyət göstərir. Burada ümumilikdə 505 tələbə bakalavriat səviyyəsində 7 ixtisas - iqtisadiyyat, maliyyə, mühasibat uçotu, menecment, dövlət və bələdiyyə idarəetməsi, beynəlxalq ticarət və logistika, turizm işinin təşkili üzrə təhsil alır.

Yeni akademik məzmunun formalaşdırılması, müasir tədris metodlarının tətbiqi, praktiki bacarıqların inkişafı, innovativ idarəetmə və nəticəyönümlü elmi tədqiqatlar fakültənin fəaliyyətinin əsas istiqamətlərini təşkil edir.

Tədris binasında 40 auditoriya, kompüter laboratoriyaları, kitabxana, oxu və akt zalları, iclas, inzibati və professor-müəllim otaqları mövcuddur. Müasir universitet konsepsiyasına uyğun dizayn edilərək inşa olunmuş binanın layihələndirilməsi və tikilməsində dayanıqlı inkişaf, inklüzivlik və resurslardan səmərəli istifadə prinsipləri nəzərə alınıb. Bir sözlə, bina tədris, tədqiqat və inzibati fəaliyyətin daha səmərəli şəkildə həyata keçirilməsinə imkan verən geniş və müasir infrastruktura malikdir.

Yaradılmış şərait fakültənin elmi-pedaqoji potensialının gücləndirilməsinə, tələbələrin bilik və bacarıqlarının inkişafına, əmək bazarının sürətlə dəyişən tələblərinə uyğun iqtisadiyyat və biznes istiqamətli yüksəkixtisaslı mütəxəssislərin hazırlanmasına, elmi-tədqiqat və innovativ fəaliyyətlərin genişləndirilməsinə imkan yaradacaq.

Biznes və iqtisadiyyat fakültəsinin yeni tədris binasının istifadəyə verilməsi universitetdə müasir kampusun formalaşdırılması istiqamətində atılan mühüm addımlardan biri olmaqla yanaşı, Qarabağda və Şərqi Zəngəzurda yüksəksəviyyəli ali təhsil ekosisteminin qurulmasına əhəmiyyətli töhfədir.

Qeyd edək ki, Prezident İlham Əliyev 2024-2025-ci illər ərzində Qarabağ Universitetində görülən işlərlə tanış olub, universitetin, tələbə yataqxanasının, Klinika binasının, Tibb və sağlamlıq elmləri fakültəsinin tədris korpusunun açılış mərasimlərində də iştirak edib.

Hazırda Qarabağ Universitetində 34 ixtisas üzrə 7 fakültədə 2154 tələbə təhsil alır.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də Xankəndi şəhərində Qarabağ Universitetinin Mühəndislik fakültəsinin binasının təməlini qoyub.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına binada yaradılacaq şərait barədə məlumat verildi.

Qeyd edək ki, Qarabağ Universitetinin Mühəndislik fakültəsi müasir texnoloji çağırışlara cavab verən, innovasiya və tətbiqyönümlü mühəndis kadrların hazırlanmasını hədəfləyən əsas akademik struktur bölmələrdən biridir. Fakültədə hazırda 19 professor-müəllim, inzibati və texniki heyət üzvü fəaliyyət göstərir. Burada ümumilikdə 314 tələbə təhsil alır.

Fakültədə bakalavriat səviyyəsində elektrik və elektronika, inşaat, mexatronika və robototexnika, logistika və nəqliyyat texnologiyaları, kompüter mühəndisliyi, data analitika və riyaziyyat daxil olmaqla 7 ixtisas üzrə kadr hazırlığı həyata keçirilir. Gələcəkdə mühəndislik istiqaməti üzrə yeni ixtisasların açılması nəzərdə tutulur.

Yeni binanın müasir standartlara uyğun inşa edilərək qısa müddətdə istifadəyə verilməsi planlaşdırılır. Tədris binası keyfiyyətli kadr hazırlığını təmin edən, tələbələrin nəzəri bilik və praktiki bacarıqlarının inkişafına, həmçinin innovativ fəaliyyətlərinin genişləndirilməsinə xidmət edən auditoriyalar, laboratoriyalar, kitabxana, elmi-tədqiqat və innovasiya məkanları ilə təchiz olunacaq.

Layihənin icrası mühəndislik təhsilinin inkişafına mühüm töhfə verməklə yanaşı, müasir akademik məzmunun və innovativ tədris metodlarının tətbiqini təşviq edən, tələbələrin hərtərəfli inkişafını dəstəkləyən qabaqcıl ali təhsil mühitinin formalaşdırılmasına xidmət göstərəcək.











# Dövlət dilinin öyrədilməsi və tədrisinin keyfiyyətinin artırılmasına mühüm töhfə

## "Azərbaycan dili" platformasının təqdimat mərasimi keçirilib









Dekabrın 28-də Azərbaycan Dillər Universitetində "Azərbaycan dili" platformasının *(https://azerbaijani.edu.az/)* təqdimat mərasimi keçirilib.

Təqdimat mərasimində Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva və sözügedən layihənin ideya müəllifi və rəhbəri Alena Əliyeva iştirak ediblər.

Ölkə Prezidentinin Azərbaycan dilinin saflığının qorunması ilə bağlı tapşırıqlarına uyğun olaraq hazırlanan platformanın məqsədi dilimizin öyrədilməsi və sistemli tədrisinin təmin olunması, bu prosesin müasir, interaktiv rəqəmsal resurslar vasitəsilə daha effektiv və əlçatan edilməsi, eləcə də müxtəlif yaş və maraq qruplarını əhatə edən geniş auditoriyaya çatdırılmasıdır.

Təqdimat mərasimindən öncə Azərbaycan Dillər Universitetinin muzeyinə baş çəkən qonaqlar muzeyin fəaliyyəti ilə tanış olub, eksponatlar haqqında məlumatlandırılıblar. Universitetin rektoru Kamal Abdulla qonaqlara ali təhsil müəssisəsinin fəaliyyəti haqqında məlumat verib.

Təqdimat mərasimində çıxış edən rektor Kamal Abdulla platformanın Azərbaycan dilinin qorunması, inkişafı və müasir rəqəmsal mühitdə təbliği baxımından əhəmiyyətindən bəhs edib. Qeyd edib ki, Prezident İlham Əliyevin Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş yığıncaqda çıxışı zamanı Azərbaycan dilinin qorunması və inkişafı ilə bağlı söylədiklərinin fonunda bu cür platformanın realizə olunmasına böyük ehtiyac var idi. Universitetin alimləri və gənc mütəxəssisləri bu işi şərəflə yerinə yetirdilər.



Layihənin ideya müəllifi və rəhbəri Alena Əliyeva çıxışı zamanı təhsilin cəmiyyətimizdə vacib rola malik olduğunu bildirib. O, platformanın təqdimatı münasibətilə hər kəsi təbrik edib. Layihənin həyata keçirilməsində göstərilən dəstəyə görə Heydər Əliyev Fonduna, Elm və Təhsil Nazirliyinə, Azərbaycan Dillər Universitetinə, o cümlədən layihənin bütün iştirakçılarına minnətdarlığını bildirib.

Daha sonra Azərbaycan Dillər Universitetinin prorektoru Jalə Qəribova və layihənin koordinatoru Səbinə Əliyeva "Azərbaycan dili" platformasının təqdimatını ediblər. Təqdimatda platformanın yaradılma məqsədləri, funksional imkanları və müxtəlif yaş və istifadəçi qrupları üçün nəzərdə tutulmuş məzmunu barədə ətraflı məlumat verilib.

Qeyd edilib ki, platformada Azərbaycan dilinin öyrədilməsi prosesi dörd əsas bacarıq üzərində qurulub. Oxuyub-anlama, dinləyib-anlama, yazı və danışıq bacarıqları üzrə materiallar və tapşırıqlar platformada öz əksini tapıb. Bununla yanaşı, platformaya qrammatika, sosialinqvistika, lüğət və resurslar bölməsi də daxil edilib. Materiallar 6 səviyyə üzrə təqdim edilib, hər bir səviyyəyə uyğun söz ehtiyatı və qrammatik qaydalar nəzərə alınaraq hazırlanıb. Bu da əcnəbilərin dilimizi öyrənməsi işini kifayət qədər asanlaşdıracaq.

Tədbirdə təbrik nitqi ilə çıxış edən elm və təhsil naziri Emin Əmrullayev "Azərbaycan dili" platformasının dövlət dilinin öyrədilməsi və tədrisinin keyfiyyətinin artırılmasına, həmçinin rəqəmsal təhsil resurslarının genişləndirilməsinə mühüm töhfə verəcəyini bildirib. Nazir bu cür təşəbbüslərin Azərbaycan dilinin müasir çağırışlara uyğun inkişafında xüsusi rol oynadığını vurğulayıb.

Prezident İlham Əliyevin Azərbaycan dilinin saflığının qorunması istiqamətində tapşırıqlarına uyğun olaraq ölkəmizdə görülən işlərdən bəhs edən nazir bildirib ki, platformanın mahiyyəti ana dili Azərbaycan dili olmayan insanlara da bizim dili öyrətməkdən ibarətdir. Qeyd edib ki, istər Azərbaycanda təhsil alan xarici tələbələr, istər ölkəmizdə işləmək istəyən əcnəbilər, yaxud da Azərbaycan dilini xarici dil kimi öyrənmək istəyənlər üçün həmin platforma vacib rol oynayacaq. Süni intellekt həllərindən aktiv istifadə olunan platforma ingilis dili üzərində qurulub, lakin digər dillərə də tərcümə edilməsi mümkündür. Nazir çıxışının sonunda platformanın uğurlu olacağına əminliyini ifadə edib.

Sonra "Azərbaycan dili" platformasına həsr olunmuş videoçarx nümayiş etdirilib.

Digər çıxışlardan sonra təqdimat mərasimi çərçivəsində bədii hissə də nümayiş etdirilib.

Təqdimat mərasimi xatirə fotosunun çəkilməsi ilə yekunlaşıb.

Qeyd edək ki, təqdimat mərasiminin 31 Dekabr — Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ərəfəsində keçirilməsi Azərbaycan dilinin dünya azərbaycanlılarını birləşdirən əsas dəyərlərdən biri olduğunu bir daha nümayiş etdirib.

# Uşaq İncəsənət Festivalının qalibləri mükafatlandırılıb









Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi və Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə növbəti Uşaq İncəsənət Festivalına yekun vurulub. Dekabrın 26-da Heydər Əliyev Mərkəzində festivalın yekun mükafatlandırma mərasimi keçirilib.

Mərasimdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Alena Əliyeva iştirak ediblər.

Əvvəlcə festival barədə məlumat verilib. Bildirilib ki, 2023-cü ildən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə keçirilən festivalın məqsədi milli-mənəvi dəyərlərin gənc nəslə aşılanması, ənənəvi incəsənət sahələrinin qorunub yaşadılması və dövlətinə, vətəninə bağlı gəncliyin yetişdirilməsidir. Layihə, eyni zamanda, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun mədəniyyət və gənc istedadların dəstəklənməsi istiqamətində həyata keçirdiyi fəaliyyətin tərkib hissəsidir.

Uşaq İncəsənət Festivalı təkcə müsabiqə formatı ilə deyil, həm də uşaqların inkişafına yönəlmiş geniş yaradıcılıq platforması kimi çıxış edərək onların komanda işi, səhnə mədəniyyəti, yaradıcı yanaşma və özünüifadə bacarıqlarının formalaşmasına töhfə verir. Bu platforma Uşaq İncəsənət Festivalını artıq müsabiqə formatından çıxararaq ölkə üzrə istedad bankının formalaşdırılmasına xidmət edən bir mədəniyyət mexanizminə çevirib. Belə ki, Azərbaycanın bütün bölgələrindən olan 6—17 yaş aralığındakı uşaqları bir araya gətirən festival ötən müddətdə peşəkar və həvəskar kateqoriyalar üzrə yaradıcılıq mübadiləsi üçün geniş imkanlar yaradıb.



2025-ci ilin mart ayından start götürən builki festivala 27 mindən çox iştirakçı müraciət edib və bu göstərici layihənin geniş miqyasını, uşaqların incəsənətə artan marağını bir daha təsdiqləyir. Seçim mərhələlərinin nəticələrinə əsasən 19 fərdi və 5 kollektiv nominasiya üzrə qaliblər müəyyənləşdirilib. Beləliklə, festival üzrə ümumi qalib sayı 512 nəfər olub.

Tədbirdə çıxış edən mədəniyyət naziri Adil Kərimli Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən mədəniyyət siyasətinin əsas istiqamətlərindən birinin gənc kadrların, gənc istedadların üzə çıxarılmasına dövlət dəstəyinin göstərilməsi olduğunu bildirib. Nazirin sözlərinə görə, Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondu tərəfindən gənc istedadların müəyyən edilməsi, onların təhsilinin, eyni zamanda, fərdi inkişafının dəstəklənməsi istiqamətində çoxsaylı layihələr həyata keçirilməkdədir. Uşaq İncəsənət Festivalı isə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü və ideyası ilə keçirilir. Qarşıya qoyulan tapşırıqlardan biri də o idi ki, bütün ölkə ərazisində yaradıcı təfəkkürə malik gənc istedadların, xüsusi fitri istedada sahib olan uşaqların müəyyən edilməsi, onların üzə çıxarılması, onlarla fərdi inkişaf işinin aparılması istiqamətində bir mexanizm qurulsun. Bu layihə də məhz həmin ideya əsasında ərsəyə gəldi.

Sonra festivalın qaliblərinə mükafatlar təqdim edilib. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva qalibləri təbrik edib, onlara uğurlar arzulayıb.

Daha sonra isə qaliblərin ifasında konsert proqramı təqdim olunub. Proqram çərçivəsində qaliblər solo çıxışlarla yanaşı, tanınmış incəsənət xadimləri ilə duet nömrələri və xüsusi hazırlanmış musiqi-səhnə kompozisiyaları ilə çıxış ediblər.

Qeyd edək ki, Uşaq İncəsənət Festivalı inklüzivlik prinsiplərinə əsaslanaraq hər bir uşağın bərabər iştirakını təmin edir. Festival çərçivəsində qarmon ifaçılığı, dekorativ-tətbiqi sənət və rəssamlıq nominasiyaları üzrə sağlamlıq imkanları məhdud olan uşaqlar da iştirak edib və qalib olublar. Xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün yaradılmış əlçatan mühit onların istedadlarını sərbəst nümayiş etdirməsinə imkan verib. Festival mədəniyyət sahəsində bərabər imkanların və sosial inteqrasiyanın təşviqinə xidmət edir. Layihənin növbəti illərdə daha geniş proqramla davam etdirilməsi və minlərlə uşağın yaradıcılıq yoluna dəstək olması nəzərdə tutulur.

# Elm və təhsil naziri BMT-nin Rezident Əlaqələndiricisi ilə görüşüb



Dekabrın 25-də elm və təhsil naziri BMT-nin Rezident Əlaqələndiricisi Vladanka Andreyeva ilə görüşüb.

Görüş zamanı sözügedən təşkilatla mövcud əməkdaşlıq çərçivəsində həyata keçirilən fəaliyyətlər müzakirə olunub. Eyni zamanda “2026-2030-cu illər üçün BMT və Azərbaycan arasında Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədi”nə istinadən gələcək əməkdaşlıq perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

# “Azərbaycanda dövlət-din münasibətlərinin konstitusion prinsipləri: dünyəvilik və vicdan azadlığı”

## Azərbaycan Din Xadimlərinin II Forumu keçirilib

Dekabrın 24-də Bakıda “Konstitusiya və Suverenlik İli” çərçivəsində “Azərbaycanda dövlət-din münasibətlərinin konstitusion prinsipləri: dünyəvilik və vicdan azadlığı” mövzusunda Azərbaycan Din Xadimlərinin II Forumu keçirilib.

Forumda Türkiyə, Özbəkistan, Qazaxıstandan olan nümayəndə heyətləri, müvafiq dövlət qurumlarının, Azərbaycan Respublikasında fəaliyyət göstərən müxtəlif konfessiyaların nümayəndələri, eləcə də dini təhsil müəssisələrinin müəllimləri, ilahiyyatçı alim və mütəxəssislər iştirak ediblər.

Açılış mərasimi Dövlət Himninin səsləndirilməsi ilə başlayıb və Vətən müharibəsində qazanılan qələbənin 5-ci ildönümünə həsr olunmuş videoçarx nümayiş olunub.

Açılış mərasimində elm və təhsil naziri Emin Əmrullayev də iştirak edib.






Giriş nitqi ilə çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov bildirib ki, bugünkü tədbir 2024-cü ildə təməli qoyulmuş mühüm bir ənənənin məntiqi davamı olmaqla yanaşı, dövlət-din münasibətlərinin sağlam və davamlı inkişaf xəttinin göstəricisidir.

Türkiyə Cümhuriyyəti Diyanət İşləri İdarəsinin sədri Safi Arpaquş qeyd edib ki, insanların inancına hörmət olunmayan cəmiyyətlərdə hüzurdan, sabitlikdən və rifahdan söhbət gedə bilməz. Onun sözlərinə görə, bütün dünyada sülh və birgəyaşayış ideyalarının bərqərar olmasına çalışan Azərbaycanda keçirilən bu cür tədbirlərin əhəmiyyəti olduqca yüksəkdir. Çünki bu cür platformalar birliyi gücləndirir, ortaq problemlərin həll yollarını tapmağa kömək edir.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva bildirib ki, Forumda müzakirə olunacaq məsələlər, səsləndiriləcək məruzələr dinlərarası dialoqun qurulması, dövlət-din münasibətlərinin konstitusion norma və prinsiplər əsasında daha səmərəli təmini sahəsində müsbət təcrübələrin təbliği baxımından əhəmiyyətli olacaq.

Çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova deyib ki, bu Forum müəyyən olunmuş mövzu üzrə müzakirə platforması olmaqla yanaşı, Azərbaycan cəmiyyətinin mənəvi dayaqlarını, ailə dəyərlərini və insan amilini qorumağa yönəlmiş ortaq məsuliyyətimizin ifadəsidir. Qeyd edib ki, bu mötəbər tədbirin artıq ikinci dəfə keçirilməsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müəyyən etdiyi siyasi xəttə uyğun olaraq ölkəmizdə dövlət-din münasibətlərinin konstitusion prinsiplər əsasında inkişaf etdirilməsinə, dünyəvilik və vicdan azadlığı kimi fundamental dəyərlərin qorunmasına verilən yüksək önəmin təzahürüdür.

Özbəkistan Respublikasının Prezidentinin dövlət müşavirinin müavini, Beynəlxalq İslam Akademiyasının rektoru Müzəffər Kamilov, Qazaxıstan Respublikası Parlamenti Senatının üzvü Yernur Aitkenov və digər qonaqlar çıxışlarında forumun yüksək səviyyədə təşkilinə görə Azərbaycan dövlətinə minnətdarlıqlarını bildiriblər. Çıxışlarda qeyd edilib ki, qloballaşma şəraitində dövlət-din münasibətlərinin tarazlaşdırılması sosial sabitlik və milli təhlükəsizlik üçün vacibdir. Azərbaycanın təcrübəsi, dünyəvi dövlət prinsiplərinə sadiq qalaraq dini tolerantlıq və vicdan azadlığını təmin etməsi xüsusi diqqətə layiqdir. Bu model dini həmrəyliyi və sosial sabitliyi gücləndirir. Belə forumlar dövlətlər arasında etimadın möhkəmlənməsinə və dayanıqlı inkişafa xidmət edir.

Açılış mərasimindən sonra Forum öz işini panel müzakirələrlə davam etdirib.

Forum çərçivəsində Elm və Təhsil Nazirliyi ilə birgə təşkil edilən “Rəqəmsal informasiya mühitində dini təhsil və maarifçilik strategiyaları” mövzusunda II panel müzakirəsində elm və təhsil nazirinin müavini Firudin Qurbanov çıxış edib.

Panel müzakirəsi Milli Məclisinin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fazil Mustafanın moderatorluğu ilə baş tutub.

Elm və təhsil nazirinin müavini Firudin Qurbanov çıxışı zamanı rəqəmsal mühitin dini maarifçilik sahəsində yaratdığı imkanlar və çağırışlar barədə danışıb. Nazir müavini bildirib ki, rəqəmsal informasiya mühitində uşaq və gəncləri bir sıra ideoloji təhdidlər gözləyir ki, onlardan biri də dini təriqətlərin sosial şəbəkələrdə apardığı təbliğatdır. İnternetdən təhlükəsiz istifadə üsullarının öyrədilməsi son vaxtlarda Azərbaycan məktəblərində həm müvafiq fənn — informatika üzrə kurikulumun tərkib hissəsidir, həm də fənlərarası yanaşmadır. Belə ki, informatika dərslərində şagirdlər təhdidlərdən qorunmağı öyrənirsə, Azərbaycan dili dərslərində fakt və rəy, nəzər nöqtəsi, arqument və əks-arqument, maraqlı tərəf və onun təsir üsulları kimi anlayışlarla tanış olur və misallar üzərində müxtəlif növ mətnləri təhlil etməyi öyrənir.

Firudin Qurbanov vurğulayıb ki, ümumi təhsil pilləsi üzrə təhsil proqramlarında, əsasən də həyat bilgisi, Azərbaycan tarixi, ümumi tarix fənləri üzrə təhsil proqramlarında təhsilalanların mədəni müxtəlifliyə hörmət etməsi, dinlər haqqında təsəvvürünün formalaşması, multikultural dəyərlərə hörmət aşılanır.

Nazir müavini qeyd edib ki, ümumtəhsil məktəbi səviyyəsində mənəvi-əxlaqi komponentin təhsilin məzmununa daxil edilməsi, şagirdlərin təlim potensialının inkişafına münbit şərait yaradır. Bu isə milli əxlaqi normalarının, mənəvi ideallarının öyrənilməsi, eləcə də dünyəvi etik normalarına və ənənəvi dinlər mədəniyyətinə dair təsəvvürlərin gündəlik həyata inteqrasiya olunması yolu ilə mümkün olur.

Nazir müavini çıxışının sonunda vurğulayıb ki, Azərbaycan təhsilinin başlıca məqsədlərindən biri də milli mənəvi dəyərlərə əsaslanan hədəflərə çatmaqdan ibarətdir.

Panel müzakirəsi zamanı Azərbaycanda dini fəaliyyət və ilahiyyat sahəsində kifayət qədər təcrübə mövcud olsa da, vahid və etibarlı bir məlumat bazasının yaradılmasının əhəmiyyəti, saxta informasiya axını, yanlış yönləndirmələr və dəyərlərin aşınması baxımından milli-mənəvi irsə əsaslanan maarifçilik və gənclərlə məqsədyönlü işin vacibliyi vurğulanıb.

Qeyd edək ki, Forum çərçivəsində “Multikultural dəyərlər sistemi: dövlət-din münasibətlərinin hüquqi və mədəni aspektləri”, “Qlobal təsirlər fonunda gənclərin maarifləndirilməsi: müasir metod və innovativ yanaşmalar” və “Qadınların sosial və mənəvi inkişafında dini icmaların rolu” mövzularına həsr olunan panel müzakirələr də təşkil olunub.

# Azərbaycan və Türkiyə arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyasının 12-ci iclası keçirilib



## Elm və təhsil nazirinin müavini Həsən Həsənli iclasda çıxış edib

Elm və təhsil nazirinin müavini Həsən Həsənli dekabrın 22-də Bakıda keçirilmiş Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyasının 12-ci iclasında iştirak edib.

Hökumətlərarası Komissiyanın iclasında həmsədrlər - Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov və Türkiyə Respublikasının vitse-prezidenti Cevdet Yılmaz çıxış ediblər.

Sonra çıxış edən nazir müavini Həsən Həsənli iki ölkə arasında elm və təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti barədə iclas iştirakçılarını məlumatlandırıb. Nazir müavini Türkiyə-Azərbaycan Universitetinin (TAU) ali təhsil sahəsində uğurlu əməkdaşlığı, eyni zamanda universitetin fəaliyyəti, nəticələri və ali təhsil sistemində növbəti imkanları barədə məlumat verib.

Həsən Həsənli çıxışında həmçinin qarşılıqlı tələbə və elmi-akademik heyətin mübadiləsinin genişləndirilməsi, peşə təhsili, ümumi təhsil və ali təhsil müəssisələri arasında akademik əlaqələrin dərinləşdirilməsi istiqamətində görülmüş işlərdən bəhs edib.

Daha sonra iclasın yekunlarına dair Protokol imzalanıb.

# Şahin Bayramov: Prezidentimizin memarı olduğu Qarabağ Universitetində növbəti tarixi gün yaşandı

Dekabrın 23-də Prezident İlham Əliyevin Qarabağ Universitetinə növbəti səfəri professor-müəllim və tələbə heyətimizin böyük sevincinə səbəb oldu və hər birimizi qürurlandırdı. Dövlət başçımız universitetimizin Biznes və iqtisadiyyat fakültəsinin yeni inşa olunmuş binasının açılışında iştirak etdi və Mühəndislik fakültəsinin binasının təməlini qoydu.



## Göstərilən yüksək diqqət və qayğıya görə bir daha Prezidentimizə dərin minnətdarlığımızı ifadə edirik

Prezidentimizin memarı olduğu Qarabağ Universitetində növbəti tarixi gün yaşandı. Məhz bu tarixi günlər Prezidentimizin ali təhsilin inkişafına verdiyi yüksək dəyərin, xüsusilə də azad edilmiş ərazilərdə müasir və rəqabətqabiliyyətli universitet modelinin qurulmasına yönəlmiş ardıcıl, sistemli və strateji yanaşmasının bariz təzahürüdür.

Bunu AZƏRTAC-a açıqlamasında Qarabağ Universitetinin rektoru Şahin Bayramov söyləyib.

Rektor deyib: “Eyni zamanda, qürurluyuq ki, ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpa edilməsindən dərhal sonra Müzəffər Ali Baş Komandanımız tərəfindən yaradılmış Qarabağ Universiteti qısa müddətdə sürətli inkişaf yoluna çıxmışdır. İkinci tədris ilində fəaliyyətini davam etdirən universitetimiz hazırda milli ali təhsil məkanında özünəməxsus xüsusiyyətləri, keyfiyyət əsaslı vizyonu və ilkin akademik nailiyyətləri ilə seçilir. Azad edilmiş torpaqlarda elmi-intellektual potensialı formalaşdıran və gücləndirən Qarabağ Universiteti yüksəkixtisaslı kadr hazırlığı, nəticəyönümlü tədqiqatları, səmərli innovativ həlləri və faydalı sosial təşəbbüsləri ilə cəmiyyətin hərtərəfli inkişafına xidmət edən akademik mərkəzə çevrilməyi hədəfləyib və bu yolda inamla irəliləyir”.

Ş.Bayramov bildirib ki, Biznes və iqtisadiyyat fakültəsinin müasir standartlara cavab verən yeni inşa olunmuş binası, eləcə də Mühəndislik fakültəsi üçün təməli qoyulan və qısa müddətə istifadəyə verilməsi nəzərdə tutulan bina Qarabağ Universitetində maddi-texniki bazanın mərhələli və sistemli şəkildə gücləndirildiyini, müasir kampus modelinin ardıcıl şəkildə formalaşdırıldığını bir daha təsdiqləyir. Bütün bunlar universitetin qarşısına qoyulmuş strateji hədəflərə çatmasına imkan verən zəruri potensialın inkişafına misilsiz töhfədir. Belə ki, Biznes və iqtisadiyyat fakültəsinin yeni binası tələbəyönümlü yanaşmaya əsaslanan, praktiki bacarıqların inkişafını və innovativ tədris metodlarının tətbiqini təşviq edən akademik mühitin formalaşmasına geniş imkanlar yaradır. İnanırıq ki, Mühəndislik fakültəsi üçün yeni inşa ediləcək bina yüksək akademik biliyə, müasir texnoloji bacarıqlara və innovativ düşüncəyə malik mühəndis kadrların hazırlanmasına xidmət etməklə, ölkəmizdə mühəndislik təhsilinin keyfiyyətcə yeni səviyyəyə yüksəldilməsində mühüm rol oynayacaq.

“Xüsusi vurğulamaq lazımdır ki, Prezidentimizin qarşımıza qoyduğu vəzifələr və verdiyi tapşırıqlar Qarabağ Universitetinin strateji inkişaf yolunu daha da aydınlaşdırmış oldu. Qarabağ Universitetinin kollektivi olaraq, göstərilən yüksək diqqət və qayğıya görə bir daha Prezidentimizə dərin minnətdarlığımızı ifadə edirik. Şərəfli və məsuliyyətli missiyanı layiqincə yerinə yetirmək üçün professor-müəllim və tələbə heyətinin potensialını səfərbər edəcəyik” - deyə, Şahin Bayramov bildirib.

# Nazir müavini Azərbaycan Şahmat Federasiyasının hesabat tədbirində iştirak edib




Dekabrın 22-də Azərbaycan Şahmat Federasiyasının (AŞF) 2025-ci ilin yekunlarına həsr olunan tədbiri keçirilib.

Elm və təhsil nazirinin müavini Firudin Qurbanov tədbirdə iştirak edib.

Əvvəlcə gənclər və idman naziri Fərid Qayıbov və AŞF-nin prezidenti Mahir Məmmədov çıxış ediblər, eləcə də federasiyanın hesabatı dinlənilib.

Sonra beynəlxalq yarışlarda, Avropa və dünya çempionatlarında uğurla çıxış edən şahmatçılarımız, eləcə də il ərzində şahmatın inkişafına töhfə vermiş şəxslər təltif olunublar.

Tədbir çərçivəsində Azərbaycan Şahmat Federasiyası ilə Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi arasında niyyət protokolu rəsmiləşdirilib. Sənədi AŞF prezidenti Mahir Məmmədovla Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin direktoru Eşqi Bağırov imzalayıb.

# Firudin Qurbanov rəqəmsal mühitdə uşaqların müdafiəsinə həsr olunmuş beynəlxalq konfransın açılış mərasimində iştirak edib



Dekabrın 23-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə "Rəqəmsal mühitdə uşaqların müdafiəsi: müasir alətlər və beynəlxalq əməkdaşlıq" mövzusunda beynəlxalq konfransın açılış mərasimi keçirilib. Açılış mərasimində elm və təhsil nazirinin müavini Firudin Qurbanov iştirak edib. Konfransda açılış nitqi ilə çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bildirib ki, uşaqların rəqəmsal mühitdə müdafiəsi insan hüquqları, milli təhlükəsizlik və davamlı inkişaf baxımından strateji əhəmiyyət daşıyır və bu sahədə beynəlxalq sənədlərdə nəzərdə tutulan əməkdaşlıq prinsipləri Azərbaycan tərəfindən milli siyasətdə ardıcıl şəkildə həyata keçirilir.

Bahar Muradova uşaqların rəqəmsal mühitdə müdafiəsində ailənin rolu, eləcə də ailə daxilində etibarlı və açıq ünsiyyət mühitinin qurulmasının vacibliyini vurğulayıb, valideynlərin rəqəmsal savadlılığının artırılmasının mühüm prioritetlərdən biri olduğunu qeyd edib.

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev çıxışında uşaqlar üçün internet imkanlarının tam şəkildə faydaya çevrilməsinin dövlət və valideynlərin birgə əməkdaşlığından asılı olduğunu dilə gətirib. Nazir Azərbaycan dövlətinin uşaqların rəqəmsal mühitdə təhlükəsiz və səmərəli inkişafını dörd əsas mərhələdə gördüyünü bildirib və əlavə edib ki, bunlar uşaqların internetə çıxış imkanlarının tam şəkildə təmin edilməsi, onlara rəqəmsal təhsilin verilməsi, normativ və hüquqi bazanın formalaşdırılması, həmçinin kibermәkanın dövlət tərəfindən tənzimlənmə mexanizmlərinin müəyyən olunmasıdır.

Açılış mərasimində çıxış edən İran İslam Respublikasının nümayəndə heyətinin rəhbəri Zəhra Pezeşkian,Türkiyə Respublikasının ailə və sosial xidmətlər naziri Mahinur Özdemir Göktaş, Mərakeş Krallığının həmrəylik, sosial inteqrasiya və ailə naziri Naima Ben Yahya, Şimali Kipr Türk Cümhuriyyətinin əmək və sosial müdafiə naziri Oğuzhan Hasipoğlu, Qətər Dövlətinin Sosial İnkişaf və Ailə Nazirliyinin ailə məsələləri üzrə köməkçi katibi Şeyxa Şaika bint Casim Al Thani, BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyeva, BMT-nin Uşaq Hüquqları Komitəsinin sədri Sofiya Kiladze, İSESKO-nun baş direktoru Salim Al Malikin müşaviri Amira Al Fadil uşaqların rəqəmsal hüquqlarının qorunması üçün beynəlxalq əməkdaşlığın gücləndirilməsinin və güclü beynəlxalq mexanizmlərin formalaşdırılmasının vacibliyini qeyd ediblər, öz ölkələrinin bu sahədə təcrübələrini bölüşməyə hazır olduqlarını diqqətə çatdırıblar.

Çıxışlarda rəqəmsal mühit və süni intellekt dövründə uşaqların hüquqlarının qorunmasının dövlətlərin aparıcı rolu və beynəlxalq əməkdaşlıq olmadan mümkün olmadığı vurğulanıb.

Açılış nitqləri dinlənildikdən sonra konfrans panel sessiya ilə davam edib.

Qeyd edək ki, konfransda yerli və xarici dövlət qurumlarının nümayəndələri, beynəlxalq təşkilatların təmsilçiləri, mütəxəssislər və ekspertlər iştirak ediblər.

# Təhsilə çıxış və sosial bərabərlik

## Təhsil Tələbə Krediti Fondunun 4 illik fəaliyyəti



**Kənan KƏRİMZADƏ,**
*Təhsil Tələbə Krediti Fondunun Himayəçilik Şurasının sədri, elm və təhsil nazirinin müavini*

Təhsil Tələbə Krediti Fondunun fəaliyyətə başlamasından 4 il ötür. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Fərmanı ilə yaradılan Fondun fəaliyyətinin əsas məqsədi aztəminatlı ailələrdən olan şəxslərin təhsilə əlçatanlığını təmin etmək, gənclərimizin ali, orta ixtisas və peşə təhsilinə çıxışını asanlaşdırmaq, təhsil haqqını ödəmək üçün maliyyə imkanları məhdud olan ailələrə - tələbələrə dövlət tərəfindən sosial dəstəyi təmin edərək hər kəsə təhsil almaqda bərabər imkanlar yaratmaq və təhsilin əhatə dairəsini genişləndirməkdir. Ötən dörd il ərzində Fond təhsilin maliyyələşməsində yeni yanaşmanın formalaşmasına təkan verib.

**4 ildə 70 mindən çox təhsil tələbə krediti rəsmiləşdirilib**

Fondun müraciət və rəsmiləşmə göstəricilərinin təhlili göstərir ki, həm müraciət edənlərin sayı, həm də rəsmiləşdirilən təhsil tələbə krediti müqavilələrinin həcmi hər il müsbət dinamika ilə artıb. Bu, təhsil tələbə kreditinə olan maraq və ictimai inamın artmasının göstəricisidir. Bu artım həm Fondun təqdim etdiyi kredit mexanizminə olan etimadın möhkəmləndiyini, həm də təhsil tələbə kreditinin alternativ maliyyələşmə alətinə çevrildiyini sübut edir **(Şəkil 1.)**.

**Sosial istiqamət üzrə nəticələr**

Fondun fəaliyyəti dövründə rəsmiləşdirilmiş təhsil tələbə kreditlərinin struktur təhlili kredit mexanizminin həm sosial yönümlülüyünü, həm də kütləvi əhatəliliyini göstərir. Ümumi **70 mindən çox** rəsmiləşdirilmiş təhsil tələbə krediti müqaviləsinin təxminən **46 mini (65%) standart, 24 mini isə (35%) sosial kreditdir.** Bu bölgü bir tərəfdən sosial həssas qrupların ali, orta ixtisas və peşə təhsilinə çıxışının təmin edildiyini, digər tərəfdən isə mexanizmin geniş tələbə kütləsi üçün əlçatan maliyyə alətinə çevrildiyini nümayiş etdirir.

**Qızların təhsilə cəlbində Fondun rolu**

Bağlanmış müqavilələrin **63%-i** qadın tələbələrin payına düşür. Bu statistika təkcə gender bölgüsü deyil, eyni zamanda təhsil tələbə kreditinin qadınların iqtisadi və sosial həyatda aktivləşməsində oynadığı əhəmiyyətli rolu vurğulayır. Qadınların ümumi rəqəmlərdə yüksək paya malik olması təhsil tələbə kreditinin gender mövzusunun təşviqi baxımından mühüm sosial alətə çevrildiyini və xüsusilə qadınların təhsilə çıxışının maliyyə baxımından dəstəkləndiyini göstərir **(Şəkil 2.)**.

**Təhsil tələbə kreditindən yararlanan eyni ailənin üzvləri**

1711 ailənin eyni anda bir neçə övladı təhsil kreditindən yararlanıb. Bu ailələrdə ümumilikdə 3469 tələbə təhsil alır və bu, göstərir ki, təhsil tələbə krediti ailələrin təhsil xərci yükünün azaldılmasında, xüsusilə eyni ailədən olan bir neçə tələbənin təhsil almasının iqtisadi baxımdan təmin edilməsində mühüm rol oynayıb **(Şəkil 3.)**.

**Regional əhatəlilik və təhsilə bərabər çıxış**

Fond fəaliyyət göstərdiyi dövr ərzində yalnız iri şəhərləri deyil, respublikanın bütün iqtisadi rayonlarını əhatə edən inklüziv maliyyə mexanizminə çevrilib **(Şəkil 4.)**.

Təhsil tələbə kreditləri vasitəsilə ən ucqar kənd və qəsəbələrimizdə yaşayan gənclərimiz də ali, orta ixtisas və peşə təhsili almaq imkanı əldə edib, ailələrinin maliyyə imkanlarından asılı olmayaraq onların təhsilə çıxışı təmin olunub. Bu mexanizm xüsusilə regionlarda yaşayan və təhsil haqqı səbəbindən ali məktəblərə qəbul olduqdan sonra təhsilini davam etdirməkdə çətinlik çəkən tələbələr üçün real dəstək alətinə çevrilib.

**Rəqəmsal əlçatanlıq və idarəetmədə səmərəlilik**

TTKF-nin bütün müraciət və idarəetmə prosesi tam elektronlaşdırılıb. Bu, bir tərəfdən şəffaflığı artırıb, digər tərəfdən isə müraciət prosesini ölkənin ən ucqar kəndində yaşayan tələbə üçün əlçatan edib. Elektron platformada hər bir tələbənin şəxsi kabineti, müraciət statusları və ödəniş cədvəlləri aydın şəkildə əks olunur.

**Akademik uğura tətbiq edilən güzəştlər**

Fond tərəfindən məzun olmuş tələbələr üçün geri ödəniş mərhələsində müvafiq tələblərə uyğun olaraq sosialyönümlü güzəşt mexanizmləri tətbiq edilib. Tələbələrin akademik göstəriciləri nəzərə alınmaqla kreditlərin bir hissəsi faizdən azad edilib, eyni zamanda əlaçı tələbələrin isə aldığı vəsaitin bir hissəsi bağışlanılıb. İndiyədək TTK almış məzunların təxmini **761 min manata yaxın** vəsaiti akademik uğurlarına görə bağışlanılıb.

Faizsiz mexanizm çərçivəsində **12 mindən çox kredit** müqaviləsi üzrə ümumilikdə **12 milyon manatdan artıq vəsait** faiz tətbiq edilmədən hesablanıb. Bu kreditlərin **64 %-i sosial, 36 %-i isə standart** kreditlərdən ibarət olub ki, bu da sosial kreditlərin məzun mərhələsində daha geniş güzəşt imkanlarına malik olduğunu göstərir **(Şəkil 5.)**.

Bununla yanaşı, məzunlara borcun qismən bağışlanması mexanizmi də tətbiq edilib. Standart TTK üzrə **1700-ə yaxın** müqaviləyə **25%** güzəşt tətbiq olunaraq **383 min manatdan çox, Sosial TTK** üzrə isə **680-dən** çox müqaviləyə **50%** güzəşt tətbiq edilərək təxminən **377 min manatdan** artıq vəsait bağışlanılıb. Ümumilikdə güzəşt mexanizmləri hesabına təxminən **761 min manata yaxın** məbləğdə maliyyə yükü tələbələrin üzərindən götürülüb.

**Geri ödənişlər**

Təhsil Tələbə Krediti Fondu üzrə geri ödəniş mexanizmi mərhələli şəkildə həyata keçirilir və bu mexanizm hər tədris ilinin sonunda məzun olan tələbələrin sayı ilə birbaşa əlaqəlidir. Bu günədək **7 mindən çox** tələbənin geri ödəniş dövrü başlanıb ki, bu da Fondun fəaliyyətə başladığı dövrdən etibarən formalaşan məzun axınının nəticəsidir.

Hər yeni tədris ilinin sonunda məzun olan tələbələrin arasında geri ödəniş mərhələsinə keçən tələbələr olur ki, bu da geri yığımların həcminin ilbəil artmasına səbəb olub **(Şəkil 6.)**.

İllər üzrə geri ödənilmiş məbləğlərin dinamikası bu artımı aydın şəkildə əks etdirir. Məzunların əmək bazarına inteqrasiyası və geri ödənişə cəlb olunması genişləndikcə yığımların həcmi əhəmiyyətli dərəcədə yüksəlib. Ümumilikdə, geri ödənişlər üzrə müşahidə olunan müsbət dinamika kredit mexanizminin dayanıqlı qurulduğunu, məzunların böyük hissəsinin əmək bazarına daxil olaraq öhdəliklərini yerinə yetirdiyini və təhsil tələbə kreditlərinin uzunmüddətli maliyyə dövriyyəsi yaradan effektiv alətə çevrildiyini göstərir.

**Təhsilə çıxışı təmin edən strateji vasitə**

Fondun təcrübəsi göstərdi ki, sosial və iqtisadi alətlərin vəhdəti ilə təhsilin maliyyələşdirilməsində yeni bir model formalaşdırmaq mümkündür. Əmək bazarının tələblərinə uyğun sahələr üzrə xüsusi güzəştli kredit paketlərinin tətbiqi, tələbələrin məşğulluğuna dəstək mexanizmlərinin inteqrasiyası da gələcək prioritetlər sırasındadır.

Təhsil Tələbə Krediti Fondu yalnız maliyyə dəstəyi institutu deyil, minlərlə gəncin və ailələrin, gələcək nəsillərin təhsilə çıxışını təmin edən, sosial rifaha və bərabərliyə aparan strateji bir vasitədir.

Bu nəticələr göstərir ki, dövlətimizin təhsil sahəsindəki sosial yönümlü, təhsildə əhatəliliyin artırılması siyasəti öz bəhrəsini verir və Fond təhsil siyasətinin həyata keçirilməsində uğurlu alətlərdən birinə çevrilib.

Təhsil Tələbə Krediti Fondunun rəhbərliyinə və bütün əməkdaşlarına təşəkkür edir, uğurları münasibətilə təbrik edir, fəaliyyətlərində uğurlar, davamlı inkişaf və nailiyyətlər arzulayıram.



Şəkil 1.



Şəkil 2.



Şəkil 3.



Şəkil 4.



Şəkil 5.



Şəkil 6.

# QƏRBİ AZƏRBAYCAN BİZ QAYIDACAĞIQ!

Cari tədris ilində Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə ölkəmizin ümumtəhsil məktəblərində çox böyük tarixi-ideoloji əhəmiyyəti olan, gəncliyimizi ümumazərbaycan kontekstində xalqımızın maddi-mənəvi dünyası ilə daha yaxından tanışlığa təşviq edəcək “Qərbi Azərbaycanı yaxından tanıyaq” mövzusunda “açıq dərs” layihəsinə start verildi. Özündə gəncliyimizi Qərbi Azərbaycanın kulturoloji qatlarını, o qatlardakı milli identikliyi - milli düşüncə mədəniyyəti, dil, din, tarix, vətəndaşlıq, milli ideya anlayışlarını özündə ehtiva edən digər keyfiyyətləri öyrənməyə maraq oyatmaq missiyasını ehtiva edən Layihə, inanırıq ki, yeni bir ənənəyə çevriləcək. Təbii ki, əsrlər boyu böyük arealda yaşayaraq xalqımızın milli-mənəvi mədəniyyətinə töhfələr verən qərbi azərbaycanlılar XIX əsrin 20-ci illərin sonlarında imperiya qüvvələrinin regionda maraqlarının girovuna çevrildi. Növbəti Rusiya-İran müharibəsinin yekunu olaraq bütöv Azərbaycanın parçalanması onun tarixi ərazilərinin bir hissəsi İrəvan xanlığında Erməni Vilayətinin yaradılması ilə nəticələndi. Rusiya imperatorunun fərmanı ilə yaradılan vilayət əhalisinin etnik tərkibində mütləq dominantlıq təşkil edən azərbaycanlıların sayını minimuma endirmək üçün dövlət siyasətinin işə düşməsi həmin vaxtlardan başladı.



Onun davamı olaraq XX əsrin ikinci onilliyində I Dünya Müharibəsinin yekunu olaraq imperiyaların çöküşü şəraitində xalqların öz müqəddaratını təyin etməsi çərçivəsində gedən prosesdə üç Cənubi Qafqaz respublikası - Azərbaycan, Gürcüstan, Ermənistan dövlətləri elan edildi. Azərbaycan Xalq Cümhuriyyəti siyasi rəhbərliyinin İrəvan şəhərini yeni yaradılan Ermənistan Respublikasına güzəştə getmək qərarı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, “Bizim tarixi şəhərimizi - İrəvanı Ermənistana faktiki olaraq verilməsi bağışlanmaz bir addım idi, xəyanət və cinayət idi”. Bununla da xalqımıza qarşı tətbiq edilən siyasi proseslər dönməz şəkil alaraq, azərbaycanlılara qarşı sistemli şəkildə tətbiq edilirdi. Bunun nəticəsində regionda yaranan mənzərəni 2022-ci il dekabr ayının 24-də Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olarkən bir qrup Qərbi Azərbaycan ziyalısı ilə görüşdə çıxışı zamanı Prezident İlham Əliyev bu cür təqdim edirdi: “Bu proses azərbaycanlıların tarixi vətəni olan Qərbi Azərbaycandan deportasiya edilməsi ilə müşaiyət olunurdu. Biz bu tarixi yaxşı bilirik, xatırlayırıq və azərbaycanlıların yaşadıqları o məntəqələrin sayını da yaxşı bilirik - 170-dən çox kənddə ancaq azərbaycanlılar yaşayırdılar.

Mən ovaxtkı Ermənistanı nəzərdə tuturam, Ermənistan Respublikasını nəzərdə tuturam, 90-a yaxın kənddə azərbaycanlılar əksəriyyət təşkil edirdilər və bütövlükdə 300-dən çox şəhər və kənddə azərbaycanlılar yaşamışlar. Onların hamısı 3 il ərzində Ermənistandan zorla çıxarıldı, qovuldu, bir çoxları öldürüldü, onlara işgəncələr verildi. Bütün bu cinayətlər sovet hökumətinin gözünün önündə baş vermişdi”.

Təbii ki, bu cinayətlərin dövlət səviyyəsində baş verməsinə həmin imperiya siyasətinin varisləri olan qüvvələrin hakimiyyəti illərindəki nominal dövlətçilik tariximiz müddətində siyasi və yaxud hüquqi qiymətin verilməsi real deyildi.

Dövət müstəqilliyinin ilkin vaxtlarında Azərbaycan Respublikasının Prezidenti vəzifəsində çalışarkən Ümummilli Liderimiz Heydər Əliyev 1997-ci il dekabr ayının 18-də imzaladığı “1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında” Fərmanla gələcəkdə məsələyə hüquqi qiymət vermək üçün siyasi əsaslar yaratdı.

Bu, ali dövlət sənədinin preambulasında ifadəsini belə tapırdı: “Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən - min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi- mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir”.

> **“Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, Qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar”.**
>
> *İlham ƏLİYEV, Azərbaycan Respublikasının Prezidenti*

## Qərbi Azərbaycan mövzusu və məktəb

Fərmandan doğan siyasətin ardıcıl davam etdirilməsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin apardığı xəttin əsas elementlərindən biridir və bu, 2020-ci ilin noyabrında ölkəmizin möhtəşəm Zəfəri ilə bitən 44 günlük müharibədən sonra daha aydın göründü. Təsadüfi deyil ki, Zəfərdən 2 il sonra həmin xəttin geriyədönməz olduğu Qərbi Azərbaycan İcmasının fəaliyyətinin genişləndirilməsi ilə diqqət çəkirdi. Ölkə Prezidenti cənab İlham Əliyev 2022-ci il dekabr ayının 24-də Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olarkən o xəttin məntiqi nəticələrinə inamını belə ifadə edirdi: “Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, Qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar”.

Ortadakı siyasi iradə xüsusilə son illər qərbi azərbaycanlıları məqsəd ətrafında səfərbər edib. Məqsəd aydın olduğu kimi də cəlbedicidir: hər bir soydaşımız qaçqına çevrildiyi vaxtlardan vətənlərinə qayıdış üçün təşkilatlanıb və bu gün o təşkilatlanma Qərbi Azərbaycan İcmasının şəxsində işlək quruma çevrilib. Qurum, 1989-cu ildən Qərbi Azərbaycan qaçqınlarının problemləri ilə məşğul olan və 1988-1991-ci illərdə qaçqın düşən azərbaycanlılar barədə faktların və sənədlərin toplanaraq saxlandığı yeganə ictimai qurum kimi daxilindəki işlək strukturlarla fəaliyyətdədir. Nəticədə 1988-1991-ci illərdə Qərbi Azərbaycandan qovulmuş 50 mindən çox ailənin 20 minə qədərininə dəymiş ziyan hesablanıb və hazırda bu işlər davam etdirilir. Həmin illərdə Qərbi Azərbaycanda 300-ə yaxın yaşayış məntəqəsindən qovulan qaçqınların hər bir ailə üzrə (ad, soyad, ata adı) dəqiq statistikası aparılıb, 130 kəndin siyahısı tamamlanıb. Təşkilat Qərbi Azərbaycanda tarixi və mədəni irsimizin bütün nümunələrinin dəqiq siyahısının hazırlanmasını davam etdirir.

Sonuncu dəfə 1988-ci ilin noyabr-dekabr aylarında 200 mindən artıq soydaşımız, onların arasında 48681 nəfər şagird, 3992 nəfər müəllim tarixi yaşayış yerlərini tərk etmək məcburiyyətində qaldı. 300-dən çox kənd kitabxanası yandırılaraq məhv edildi. Bunlardan sonra ölkədə rayon-şəhər və kəndlərin adları dəyişdirilərək erməniləşdirilirdi, nəticədə min illər ərzində burada yaradılan yüzlərlə maddi-mənəvi abidələri məhv edildi, milli identikliyin başlıca atributu olan toponimlərimiz dəyişdirildi.

Azərbaycanlıların bu ərazilərdəki izlərinin total şəkildə məhv olunması kampaniya olaraq davam etdirilirdi.

İzlər isə silinmir.

Elm və Təhsil Nazirliyi ilə Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığında ümumtəhsil məktəblərində keçirilən “açıq dərs” layihəsinin bu kontekstdən olması buna görədir ki, həm öyrənənlər, həm də öyrədənlər üçün cəbedicidir. Paytaxt Bakı şəhəri də daxil olmaqla İcma İdarə Heyəti üzvlərinin həmin dərslərdə müəllim kimi iştirakı dərsləri daha da məzmunlu və cəlbedci edir. Belə dərslərdən biri noyabr ayının 25-də paytaxtın Kürdəxanı qəsəbəsindəki 113 nömrəli tam orta ümumtəhsil məktəbində təşkil olunub. Azərbaycan Dövlət Pedaqoji Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru, filologiya elmləri doktoru, professor, Qərbi Azərbaycan İcmasının İdarə heyətinin üzvü, Əməkdar müəllim Mahirə Hüseynovanın “Qərbi Azərbaycan- əzəli və əbədi Azərbaycan torpağıdır” və “Mənim Qərbi Azərbaycanım” kitablarının təqdimatı mövzusunda nümunəvi “açıq dərs”də Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin əməkdaları, məktəbin direktoru, tarix və coğrafiya müəllimləri, həmçinin Qərbi Azərbaycandan olan bir qrup valideyn iştirak edib. Tədbir Qərbi Azərbaycan TV-nin hazırladığı “Qərbi Azərbaycan” mövzusunda videoçarxların nümayiş etdirilməsi ilə başlayıb. Məktəbin direktoru G.Rüstəmova dərsi açaraq onun Qərbi Azərbaycan irsinin, tarixi yaddaşının və mədəni kimliyimizin qorunması ilə bağlı son dərəcə önəmli bir mövzuya həsr olunduğunu bidirib. “Açıq dərs” keçmək üçün auditoriyaya təqdim olunan professor Mahirə Hüseynova Qərbi Azərbaycan və azərbaycanlıların tarixi ədalətsizliklərə məruz qalması, soydaşlarımızın doğma yurdlarından didərgin salınması, həmçinin bu torpaqlara qayıdışın milli hədəf olaraq önəmi barədə danışıb. Çıxışda milli yaddaşın qorumasının zəruriliyi, “Qərbi Azərbaycana Qayıdış” ideyasının yaşadılması və gələcək nəsillərə ötürülməsinin vacibliyi xüsusi vurğulanıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mövzu ilə bağlı fikir və tövsiyələri, həmçinin Qayıdış Konsepsiyasından irəli gələn məsələlərə toxunulub.





Mahirə Hüseynova bu işdə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi ilə Qərbi Azərbaycan İcmasının birgə hazırladığı və cari ilin oktyabr ayında prezentasiyası keçirilən “Mənim Qərbi Azərbaycanım” kitabının aktuallığını qeyd edib.

Tədbirdə Azərbaycan Yazıcılar Birliyinin üzvləri Mahirə Hüseynova və Rövşən Ağayev tədris ocağının kitabxanasına müxtəlif mövzularda, o cümlədən Ümummilli Lider Heydər Əliyev və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin fəaliyyəti ilə bağlı kitablar hədiyyə etdilər.

Bundan əlavə, yazıçıların son illər çapdan çıxan ədəbi, publisistik əsərləri və görkəmli elm və incəsənət xadimlərinin kitabları məktəbin kitabxanasına bağışlanıb.

“Açıq dərs”lərdə Qərbi Azərbaycanın tarixi, mədəni irsi, adət-ənənləri, bölgələri, tanınmış şəxsiyyətləri və s. barədə videolar, o cümlədən Qərbi Azərbaycan Xronikası layihəsi çərçivəsində hazırlanan müvafiq analitik süjetlərin nümayiş edilməsi, əyani vəsaitlərdən isifadə olunması, həmçinin Qərbi Azərbaycandan olan müəllim və şagirlərin valideylərinin cəlb edilməsinin məqsədəuyğunluğundan bəhs edilib.

Tədbirdən sonra xatirə şəkli çəkdirildi və qonaqların və məktəb müəllimlərinin iştirakı ilə həyətyanı sahədə ağac əkmək aksiyası keçirildi. Layihədə məqamlardan biri də “açıq dərs”lərin iştirakçıları, həmçinin o dərslərin təşkil olunduğu ümumtəhsil məktəb kollektivlərinə ölkəmizin, xüsusilə, Qərbi Azərbaycan İcması İdarə Heyətinin nüfuzlu alimləri, ölkəmizin tanınmış ictimai xadimlərinin bu dərslərə reaksiyası ilə bağlı məktubların göndərilməsi təcrübəsidir. Belə məktublardan birini layihə çərçivəsində “açıq dərs” keçirilən tədris ocaqlarından birinə - Balakən rayonundakı Abbas Səhhət adına Hənifə kənd tam orta ümumtəhsil məktəbi kollektivinə göndərən professor Mahirə Hüseynovanın bu layihənin perspektiv əhəmiyyəti barədə yazdıqlarının maraqlı olacağını nəzərə alaraq onun tam mətnini tədim edirik:

*“Əziz dostlar!*

*Qərbi Azərbaycan mövzusu üzrə açıq dərsin ölkəmizin istər intellektual insan kapitalı, istərsə də xalqımızın maddi və mənəvi sərvətləri ilə azərbaycançılıq tariximizə verdiyi töhfələrinə görə xüsusi yeri olan Balakən rayonunda keçirilməsi xəbərindən nə qədər məmnun olduğumu ifadə etməkdə çətinlik çəkirəm. Əminəm ki, bu dərs, gəncliyimizin Qərbi Azərbaycanda ancaq ümumazərbaycan kültürünün formalaşmasında həmin tarixi torpaqlarımızda yaşayan soydaşlarımızın yaxından iştirakına deyil, ümumilikdə xalqımızın məişəti, elm, sənət, ədəbiyyat və incəsənətimizə marağına impuls verəcəkdir. Bu günün orta məktəb şagirdlərinin sırasında gələcək tədqiqatçılarımızın olacağına inanıram.*

*Ona da inanıram ki, onlar Qərbi Azərbaycan XIX əsrin birinci yarısında Rusiya İmperiyasının işğalı ilə 19 mart 1828-ci ildə Erməni Vilayətinin yaranmasından sonra erməniləşdirilsə də azərbaycanlılarının sıx şəkildə yaşadığı coğrafi məkan barədə maraqlı tədqiqatlar aparacaqlar. XX əsrin ikinci onilliyində həmin ərazilərdə yaradılan Ermənistan Respublikası, daha sonra elan olunan Ermənistan Sovet Sosialist Respublikasında siyasi səbəblərdən baş tutan deportasiyalar nəticəsində hazırda azərbaycanlılara məxsus heç bir yaşayış məntəqəsi qalmayıb. Bu fakt 1997-ci il dekabrın 18-də Prezident Heydər Əliyev tərəfindən imzalanan “1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında” Fərmanda əksini tapıbdır. Mühüm tarixi-siyasi əhəmiyyəti olan həmin fərmanda müxtəlif zamanlarda o ərazilərdən azərbaycanlıların deportasiyasını soyqırımı və etnik təmizləmə siyasəti kimi qiymətləndirilir.*

*24 dekabr 2022-ci ildə Tarixi Zəfərdən 2 il sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanışlıq zamanı Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündə bunu nəzərdə tutaraq gəncliyə çağırış etmişdi: “Biz öz tariximizi bilməli və həmin tarixdən ibrət almalıyıq!”.*

O nümunələrdən birini, Qərbi Ermənistan mövzusunun aktuallaşdırılması işi yönümündə Balakən rayonundakı Hənifə kənd tam orta məktəbində təşkil edilən “açıq dərs” buna görə əhəmiyyətlidir. Bu əhəmiyyətli işdə iştirak edən hər kəsi, pedaqoji kollektivi, şagirdləri və açıq dərsi aparan müəllimi təbrik edirəm!”.

Bununla bərabər, müasir ədəbiyyatımızda bayatı janrında 3 kitabın, Vətən və gənclik, insan və zaman mövzusunda fəlsəfi şeir kitablarının, həmçinin 44 günlük müharibəni xəyali olsa da əsgərlərimizlə birlikdə başa vuran şeirlərindən ibarət məşhur “Salam olsun” kitabının müəllifi Mahirə Nağıqızı kitablarını məktəb kitabxanasına hədiyyə olaraq göndərib.

Əlbəttə, professor Mahirə Hüseynova kimi ziyalının, ictimai xadimin ucqar sərhəd rayonlarımızdan birində keçirilən “açıq dərs” iştirakçılarına müraciəti, məzmunu ilə seçilən kitabların hədiyyəsi onların təəssüratında izsiz qalmır. Bu, həm də ideoloji təbliğat işinin keyfiyyətcə yeni mərhələyə keçməsidir.

Balakən rayonundakı Abbas Səhhət adına Hənifə kənd tam orta ümumtəhsil məktəbinin kollektivi adından direktor Cavanşir Alqayevin Mahirə xanımın adına göndərdiyi məktubda o mərhələnin ilkin konturlarını görmək mümkündür: “Qərbi Azərbaycan İcmasının fəaliyyətində göstərdiyiniz fəal mövqeyə, milli maraqlarımıza əsaslanan təşəbbüslərinizə, icmanın məqsəd və vəzifələrinin həyata keçirilməsi istiqamətindəki səmərəli fəaliyyətinizə görə sizə öz adımdan və rəhbərlik etdiyim pedaqoji kollektivin üzvləri adından səmimi təşəkkürümüzü bildiririk. Qərbi Azərbaycandan olan soydaşlarımızın tarixi hüquqlarını qorunması, onların haqq səsinin beynəlxalq ictimaiyyətə çatdırılması və bu istiqamətdə görülən işlərdə nümayiş etdirdiyiniz prinsipial mövqe yüksək qiymətləndirilir” - sözləri ilə başlayan məktub belə davam edir: “Sizin dərsin iştirakçılarına göndərdiyiniz təbrik məktubu ilə iştirakçılar öncədən tanış edildi.

Dərsin gedişində ölkə başçısı cənab İlham Əliyevin Qərbi Azərbaycanla bağlı yürütdüyü siyasət təkcə tarixi xatırlatma deyil, beynəlxalq hüquqa əsaslanan qayıdış konsepsiyasıdır başlığı altında videoçarx, Qərbi Azərbaycanda olan mədəni irsimizə aid abidələr “Göy məscid”, “Güzgülü məscid”, “Sərdar məscid”in şəkillləri, Naxçıvanın Kəngərli rayonunun Çalxanqala kəndində məskunlaşan soydaşlarımızın həyat tərzi barədə videoçarx nümayiş etdirildi.

Nəticə olaraq onu qeyd etməyi lazım bilirik ki, cənab Prezident İlham Əliyev tərəfindən seçilən ana xətt vətən və xalq üçün milli ideologiyaya çevrilən istənilən siyasətin həyata keçməsində ən mühüm amillərdəndir.

**Könül HƏSƏNOVA,**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya faültəsinin dekanı, filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent*

# "Konstitusiya və Suverenlik İli"

## Ümumi təhsildə Konstitusiya və suverenliyin tədrisi yolları

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 28 dekabr 2024-cü il tarixli sərəncamı ilə 2025-ci il ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilmişdir. Məqalədə Azərbaycan Respublikası Konstitusiyasında yer alan demokratik prinsipləri, insan haqlarını və milli dəyərləri təhsil proqramlarına daxil etməklə təhsil prosesinin təkmilləşdirilməsi yolları təhlil edilir. Konstitusiya müddəalarının şagirdlərə hüquq və vəzifələrini öyrətmək, vətəndaş fəallığını və hüquqi şüuru inkişaf etdirmək məqsədilə tədrisinin zəruriliyi qeyd edilir. Konstitusiyanın müxtəlif fənlərə inteqrasiyası yaradıcı təfəkkürə təkan verir və şagirdlərin idarəetmə və qanunun aliliyi anlayışını gücləndirir. Bundan əlavə, təhsildə Konstitusiyadan istifadə gələcək vətəndaşlara demokratik cəmiyyətin inkişafına fəal töhfə vermək, onların dövlət quruculuğu prosesində aktiv iştirakını təmin etmək imkanları yaradır. Məqalədə şagirdlərin sosial və hüquqi şüurunun formalaşmasında Konstitusiya tədrisinin effektivliyini qiymətləndirmək üçün məzmun təhlili, nümunə tədqiqatları və pedoqoji metodlar əsasında keyfiyyətli yanaşmadan istifadə edilmişdir.



Hər bir insanın kiçik yaşlarından vətəndaş keyfiyyətləri ilə hazırlanmaq, tərbiyə olunmaq ehtiyacı var, çünki vətəndaşlıq həm də yetkinlik, fiziki və mənəvi kamilliyin nümayişidir. Vətəndaşlıq o zaman əxlaqi norma şəklində təzahür edir ki, qanunun aliliyi öz hüquqi üstünlüyü ilə gənc nəslin tərbiyəsinin tərkib hissəsinə çevrilir. Hər bir vətəndaş qanunları, xüsusilə Konstitusiyanı mükəmməl bilməlidir ki, ona riayət edə bilsin.

Vətəndaşların hüquqi hazırlığı Konstitusiyanın öyrənilməsi ilə bağlıdır. Ona görə də bu sahədə əsas vəzifə təhsil ocaqlarının üzərinə düşür. İlk növbədə, yaşından, bilik səviyyəsindən asılı olmayaraq, bütün şagirdlərə həm ümumi məsələlərin öyrədilməsi, həm də vətəndaşlıq hisslərinin aşılanması müəyyənləşdirilməlidir. Daha sonra bu iş xüsusi olaraq məktəblilərin yaşına, anlama səviyyəsinə, həyat təcrübəsinə uyğun şəkildə qurulmalıdır. Təlim prosesindən əlavə olaraq, tərbiyəvi tədbirlər həyata keçirilməlidir ki, bütün uşaqlarda vətəndaşlıq qüruru baş qaldırsın və vətəndaş kimi formalaşmasına təsir göstərsin.

Gərək "suverenlik", "müstəqil dövlət", "müstəqil ölkənin Konstitusiyası" anlayışlarının praktik real həyatda nə demək olduğunu hər bir uşaq, yeniyetmə, gənc ətraflı dərk etsin ki, onu qorumaq səylərinə nail olmaq üçün çalışsın.

Azərbaycan Respublikasının ilk müstəqil Konstitusiya layihəsi Ulu Öndər Heydər Əliyevin sədrlik etdiyi komissiya tərəfindən hazırlanmış, 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilmiş, 1995-ci il noyabrın 27-dən qüvvəyə minmişdir. Ötən müddətdə Konstitusiyamıza müəyyən əlavə və dəyişikliklər edilmişdir. Belə ki, 2002-ci il avqustun 24-də, 2009-cu il martın 18-də və 2016-cı il sentyabrın 26-da keçirilmiş ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiyamızın 23-cü maddəsinə görə, Azərbaycan Respublikasının dövlət rəmzləri - Dövlət Bayrağı, Dövlət Gerbi və Dövlət Himnidir. Konstitusiyaya əsasən, Dövlət Bayrağı və Dövlət Gerbinin təsviri, Dövlət Himninin musiqisi və mətni ayrıca Konstitusiya qanunu ilə müəyyən edilir.

Konstitusiyanın 75-ci maddəsinə əsasən, hər bir vətəndaş dövlət rəmzlərinə - bayrağına, gerbinə və himninə hörmət etməlidir. Bu qanuni tələbin hər bir vətəndaşımızın daxili tələbatına çevrilməsi üçün yetkinlikdə olan gənc nəsildə təhsil müddətində siyasi mədəniyyətin formalaşdırılması həyati zərurət sayılır. Buna isə kiçik yaşlarından aparılan tərbiyə ilə nail olmaq mümkündür. Eləcə də vətəni müdafiə, tarixi və mədəniyyət abidələrinin qorunması, ətraf mühitə, təbiətə qayğılı münasibət və digər vəzifələrin yerinə yetirilməsi məktəblilərin istək və arzusu kimi meydana çıxmalıdır. Bu hisslər şagirdlərin qanına, canına işləməli, onların həyat idealına çevrilməlidir.

Dövlət rəmzlərini tanımaq, görmək, onları sevmək hər bir Azərbaycan vətəndaşının borcudur. Müstəqilliyimizin göstəricisi olan bu rəmzlər uğrunda minlərlə soydaşımız canını qurban vermiş, şəhid olmuşdur. Ona görə də qürur mənbəyimiz olan dövlət rəmzlərini həmişə uca tutmalıyıq. Bu isə ilk öncə ailədən başlamalıdır. İbtidai siniflərdə müəllimlərin köməyi ilə şagirdlərdə dövlət rəmzləri haqqında tam təsəvvür yaradılmalı, onlarda dövlət rəmzlərinə məhəbbət hissi aşılanmalıdır. Uşaqlar üç-dörd yaşlarından etibarən Dövlət Bayrağını tanıyır, artıq məktəbə gedəndə Dövlət Gerbi ilə də tanış olurlar. Hətta məktəbəqədər təhsil müəssisələrində tərbiyə alan körpələr belə Dövlət Himnimizi əzbərdən ifa edə bilirlər.

Ümumtəhsil məktəblərinin bütün siniflərində tədris olunan dərsliklərin ilk səhifəsində Dövlət Bayrağı və Gerbi təsviri, eləcə də himnin sözləri sistemli şəkildə verilmişdir. Azərbaycanın dövlət rəmzləri ilə tanışlıq uşaqlarda vətənpərvərlik, milli iftixar duyğuları, şərəf, ləyaqət kimi hissləri tərbiyə edir.

Bütün vətəndaşların birinci vəzifəsi Konstitusiyanı mükəmməl öyrənməkdən ibarətdir. Bu məqsədlə öyrənənlərin yaşına, həyat təcrübəsinə uyğun olaraq müxtəlif tədris formalarından istifadə edilməlidir. Konstitusiyanın mahiyyəti və məzmunu, ayrı-ayrı bölmələri, fəsilləri və müvafiq maddələri uşaqların yaşlarına uyğun şəkildə şərh edilməlidir. Müəllimlər Konstitusiyanın valideynlər və cəmiyyət arasında təbliğinə də çalışmalıdırlar. Lakin təbliğat və təşviqat ilə məşğul olanlar əvvəlcə Konstitusiyanı mükəmməl öyrənməli, onun hüquqi, iqtisadi, siyasi, sosial əsaslarını bilməlidirlər.

Konstitusiyanın öyrənilməsində və şərh edilməsində diqqət, ilk növbədə, onun irəli sürdüyü əsas prinsiplərə yönəldilməlidir:

* *Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü qorumaq;*
* *Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək;*
* *Vətəndaş cəmiyyətinin bərqərar olmasına nail olmaq;*
* *Xalqın iradəsinin ifadəsi kimi qanunların ali hüquqi təməlini təmin etmək, dünyəvi dövlət qurmaq;*
* *Ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hər kəsin layiqli həyat səviyyəsini təmin etmək;*
* *Ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək.*

Hər bir prinsip haqqında ətraflı məlumat vermək üçün "müstəqillik", "suverenlik", "ərazi bütövlüyü" kimi anlayışlar aydın şəkildə izah edilməlidir ki, bu da vətəndaşlıq iftixarını, milli qürur hissini yaratmağa imkan versin.

Konstitusiyanın ümumi təhsil müəssisələrində öyrədilməsi hər bir sinifdə uşaqların anlama səviyyəsinə uyğun olaraq ayrı-ayrı fənlərin tərkib hissəsi olaraq tədris edildiyindən onu necə şərh etmək, hansı mövzu ilə əlaqələndirmək və s. kimi metodik işlər hər bir müəllimin üzərinə düşür.

Müəllimlər bu imkandan bəhrələnməklə Konstitusiyanın maddələrinin uşaqlara öyrədilməsinə çalışmalıdırlar. Humanitar və təbiət fənlərinin bu sahədə imkanları böyükdür.

Tarix dərslərində Konstitusiyanın öyrədilməsi məsələləri üzərində bir qədər geniş danışmaq lazımdır.

Konstitusiyanın orta məktəblərdə sistemli olaraq öyrədilməsi məqsədilə vaxtilə Azərbaycan Respublikası Təhsil Nazirliyinin (hazırda Elm və Təhsil Nazirliyi) 14 mart 1996-cı il tarixli əmri ilə IX siniflərdə həftədə 1 saat, bütövlükdə isə (tədris ilində 35 saat) "Azərbaycan Respublikasının Konstitusiyası" fənninin tədrisi məqsədəuyğun hesab edilmiş, ayrıca dərslik hazırlanmışdır.

I-IV siniflərin "Həyat bilgisi" və VI-IX siniflərin "Azərbaycan tarixi" fənlərinin təlimindən alınan biliklər əsasında Azərbaycan dövlətçiliyi, xalq hakimiyyəti, demokratiya, xalqın suverenliyi konkret misallarla izah edilmişdir.

Son illər ölkəmizin ictimai-siyasi həyatında baş verən hadisələr göstərir ki, Azərbaycanın müstəqil dövlət kimi qüdrəti gündən-günə artır. Azərbaycan xalqı dünya xalqları arasında özünə layiq yer tutur. Çünki dövlətimiz demokratik, hüquqi dövlətdir və Azərbaycan Respublikasının vətəndaşlarının dövlətin idarə olunmasında iştirak etmək hüququ tam təmin olunur.

Beynəlxalq aləmdə Azərbaycan xalqının yüksək dövlətçilik ənənəsi ilə bağlı imicindən bəhs edərkən, Ümummilli Lider Heydər Əliyevin siyasi fəaliyyəti mütləq yetkin gənc nəsil üçün örnək olaraq göstərilməlidir. Məhz Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində atəşkəs rejimi təmin edilmiş, "Əsrin müqaviləsi" bağlanmış, ölkədə siyasi sabitlik iqtisadi tərəqqinin təminatını möhkəmləndirmişdir. Bu kimi tədbirlər Azərbaycan dövlətinə dünyada maraq yaratmışdır.

"Həyat bilgisi" fənnini tədris edərkən Konstitusiyanın ayrı-ayrı maddələrinə istinad etmək mümkündür: məsələn, "İnsan hüquqları" mövzusu keçirilərkən Konstitusiyanın müvafiq maddələrinə istinad etmək səmərəli nəticə verə bilər. Hər şeydən əvvəl, müəllim azadlıq haqqında müxtəlif baxışları şərh edərək dərsdə "azadlıq" anlayışının mahiyyətini açmalı, "azadlıq nədir?" sualı ətrafında fikir mübadiləsi aparmalı, öz fikir və mülahizələrini düzgün əsaslandırmalıdır. O göstərməlidir ki, azadlıq özbaşınalıq deyil. Yadda saxlamaq lazımdır ki, insanların bütün sahələrdəki davranışı və fəaliyyətini tənzimləyən dinamik və çevik xarakterə malik, bir sıra məhdudlaşdırıcı hüquqi normalar vardır. Əslində, azadlığın məzmununu ölkənin ictimai-siyasi həyatının bütün sahələrindəki mövcud normaları dərk etmə səviyyəsi və onlara əməl edilməsi təşkil edir.

Müəllim azadlığın, demokratiyanın, qanunçuluğun prinsipləri ilə bağlı olduğu barədə şagirdlərə izah verərkən Konstitusiyanın "İnsan və vətəndaş hüquqları və azadlıqları" hissəsində verilmiş məlumatlara istinad etməlidir. Müəllim əvvəl insan, vətəndaş hüquqları və azadlıqlarının əsas prinsiplərini şagirdlərin nəzərinə çatdırmalıdır:

- *İnsan ləyaqəti qorunur və ona hörmət edilir;*
- *Hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır;*
- *Hüquqlar və azadlıqlar hər kəsin cəmiyyət və digər şəxslər qarşısında məsuliyyətini və vəzifələrini də əhatə edir. Hüquqlardan sui-istifadəyə yol verilmir və s.*

Göründüyü kimi, vətəndaşların azadlıq hüququ Konstitusiyada tamlıqla öz əksini tapmışdır.

Müəllim çalışmalıdır ki, hər bir şagird Konstitusiyada vətəndaşlara verilən hüquqları bilsin: bərabərlik hüququ, insan və vətəndaş hüquqları və azadlıqlarının müdafiəsi, mülkiyyət hüququ, əqli mülkiyyət hüququ, təhlükəsiz yaşamaq hüququ, şəxsi toxunulmazlıq hüququ, əmək hüququ, istirahət hüququ, sosial təminat hüququ, sağlamlığın qorunması hüququ, təhsil hüququ, mənzil hüququ, ana dilindən istifadə hüququ və s. Şagirdlərin məktəbdə oxuyarkən öz hüquqlarını bilmələri vacibdir. Hüquqlar məktəblilərə izah edilərkən onların demokratik mahiyyəti, hüquqların dövlət tərəfindən təminatı, qorunması xüsusi olaraq diqqətə çatdırılmalıdır.

Hər bir məktəbli Konstitusiyada təsbit olunan vətəndaş hüquq və vəzifələrini mükəmməl şəkildə öyrənməli və hər birinin mahiyyətini dərk etməlidir. Onlar bilməlidirlər ki, insan ləyaqəti qorunur və ona hörmət edilir; hər kəsin hüquqları və azadlıqları olduğu kimi, hər kəsin cəmiyyət qarşısında məsuliyyəti və vəzifələri də vardır. Əgər məktəblilər bu prinsipi mahiyyətcə düzgün başa düşsələr, hüquq və vəzifələrini də eyni səviyyədə anlayar və yerinə yetirməyə çalışarlar.

Konstitusiyanın "Dövlətin əsasları" fəslində təsbit olunmuş Azərbaycan dövləti, Azərbaycan dövlətinin başçısı, Silahlı Qüvvələr, beynəlxalq münasibətlərin prinsipləri, ərazi, dövlətin ali məqsədi, mülkiyyət, təbii ehtiyatlar, iqtisadi inkişaf və dövlət, sosial inkişaf və dövlət, ailə, uşaqlar və dövlət, din və dövlət, pul vahidi, dövlət dili, paytaxt, Azərbaycan dövlətinin rəmzləri haqqında maddələrdə hüquqi əsaslar göstərilir ki, onları bilmədən vətəndaş kimi vəzifələri anlamaq və yerinə yetirmək olmaz. Ona görə də bu əsaslar tədris prosesində mükəmməl öyrədilməli və bu zaman vətəndaşlıq hissləri, duyğuları inkişaf etdirilməlidir.

Konstitusiya maddələrinin öyrənilməsi işin bir tərəfidir, işin digər tərəfi məktəb tədbirləri ilə şagirdlərin vətəndaşlıq hazırlığının həyata keçirilməsidir.

Orta ümumtahsil məktəbini bitirən hər bir gənc həyata tamhüquqlu vətəndaş kimi daxil olur. O, vətəndaşlığını təsdiq edən sənəd - pasport alır. Az keçmir ki, vətəni müdafiə etmək borcunu yerinə yetirmək yaşına çatır, hətta ailə qurmaq, seçib-seçilmək hüququna yiyələnir, işləmək, vəzifə daşımaq missiyasına çatır və s. Bütün bunlar o zaman səmərəli qurulur ki, gənc kamil vətəndaşlıq hazırlığından keçmiş olsun, hüquqi-siyasi təfəkkürə yiyələnmiş olsun.

Bütün tərbiyəvi meyarları hərtərəfli mənimsəmək üçün Konstitusiyanı sistem halında öyrənmək və öyrətmək tələb olunur. Ona görə də məktəblilərin vətəndaşlıq hazırlığının sistemi, bu sistemdə həyata keçirilən iş formaları müasirləşdirilməlidir.

Bu sistemdə məktəbdə dərsdən kənar iş prosesində görülən işlər, məktəbdənkənar proseslər və sinif-tədbirlər, valideynlərlə əlaqə, ailədə və cəmiyyətdə görülən işlər, baş verən hadisələr və s. öz müvafiq yerini tutmalıdır. Lakin ilkin mərhələdə ailə və məktəb üzərinə daha böyük vəzifələr düşür.

Konstitusiyada təbiətin qorunması problemlərinə, o cümlədən gənclərin təbiətə qarşı qayğıkeş münasibətdə tərbiyə edilməsinə xüsusi yer ayrılır. Bu meyarlar əsasında gənc nəcəliklə hələ erkən yaşlarından təbiətə qarşı, onun yaratdığı nemətlərdən səmərəli istifadə sahəsində ümumi təsəvvürlər yaratmalıdır.

Göründüyü kimi, orta ümumtəhsil məktəblərində təlim prosesində Konstitusiyanın prinsiplərinin sistemli öyrədilməsi üçün geniş imkanlar vardır. Müəllimlər bu imkan və şəraitdən maksimum istifadə etməyə çalışmalıdırlar. Onlar Konstitusiyanı yalnız siyasi sənəd kimi deyil, hər bir insanın tələblərini müəyyən edən, hüquq və vəzifələrini müəyyənləşdirən sənəd kimi öyrənməlidirlər.

Konstitusiyada məktəblilərin mənəvi tərbiyəsi ilə də bağlı maraqlı məqamlar çoxdur. Belə ki, vətəndaş qarşısında ailənin mövqeyi, borcu, vəzifəsi aydın verilmişdir. Konstitusiyaya görə:

* *Cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir;*
* *Uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur. Bu borcun yerinə yetirilməsinə dövlət nəzarət edir;*
* *Valideynləri və ya qəyyumları olmayan, valideyn himayəsindən məhrum olan uşaqlar dövlətin himayəsindədir;*
* *Uşaqları onların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə biləcək fəaliyyətə cəlb etmək qadağandır;*
* *15 yaşına çatmamış uşaqlar işə götürülə bilməz;*
* *Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarət edir.*

Göründüyü kimi, uşaqların ilkin və əsas tərbiyə işi onlara qayğı göstərmək ailənin, valideynlərin üzərinə düşür, təhsil-təlim isə birbaşa tədris müəssisələrinin işidir ki, dövlət bunun təminatını və nəzarətini həyata keçirir. Deməli, Konstitusiyaya görə, müəyyənləşdiriləcək təhsil və tərbiyə konsepsiyasında ailə-məktəb əlaqəsi, ailənin və məktəbin üzərinə düşən xüsusi və ümumi vəzifələr dəqiq müəyyənləşdirilməlidir. Bu baxımdan da vətəndaşların tərbiyəsində ailə, məktəb və bütövlükdə cəmiyyət çox mühüm vəzifə və məsuliyyət daşıyır.

Konstitusiya insan-vətəndaş yetişdirilməsi üçün geniş imkanlar açır. Burada dil-ədəbiyyat müəllimlərinin də üzərinə böyük məsuliyyət düşür.

Hər bir xalqın varlığını müəyyən edən əsas şərtlərdən biri onun ana dilidir.

Azərbaycan dilinə yüksək qiymət verən Ulu Öndər Heydər Əliyev demişdir:

"Hər bir azərbaycanlı çalışmalıdır ki, dünyanın bir çox dillərini - rus, ingilis, fransız dillərini mənimsəsin, öyrənsin. Bu lazımdır, çünki müasir dünya ölkələrinin bir-biri ilə sıx əlaqəsi bu gün və gələcəkdə insandan bir çox dili bilməsini tələb edir. Mən gənclərimizə tövsiyə edirəm ki, Azərbaycan gənci Şekspiri ingilis dilində oxusun, Puskini rus dilində oxusun, Nizamini, Füzulini, Nəsimini isə Azərbaycan dilində oxusun."

Millətin ən yüksək mənəvi dəyəri olan ana dilinə Konstitusiyada da geniş yer verilmişdir.

Konstitusiyaya görə:

1. Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir və dövlət Azərbaycan dilinin inkişafını təmin edir.
2. Azərbaycan Respublikası əhalinin danışdığı digər dillərin sərbəst istifadəsini və inkişafını təmin edir.

Doğma dilimizin yaşaması və inkişafı üçün ölkəmizdə hər cür şərait yaradılmışdır. Konstitusiyada təsbit olunmuş prinsiplər uşaq bağçasından tutmuş ali məktəblərə qədər bütün tədris müəssisələrində həyata keçirilir. Azərbaycanlı uşaqlar doğma ana dilində təhsil alırlar, çünki bu hüquqa malikdirlər.

Qeyd etmək lazımdır ki, sovet hakimiyyəti illərində yerli dillər sıxışdırılsa da, Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində 1978-ci il Azərbaycan Konstitusiyasında dövlət dilinin Azərbaycan dili olması təsbit edilmişdir.

Konstitusiyamızın ən mühüm maddələrindən biri də vətənpərvərliklə bağlı olan 74-cü maddədə təsbit olunmuş ideyalardır. Bu maddə hər zaman aktuallığı və müasirliyi ilə seçilir. Məktəblərdə və ailədə uşaqlara bu məqam aşılanmalı, onların vətənpərvərlik hissləri formalaşdırılmalıdır.

Ulu Öndər Heydər Əliyevin sözlərinə görə:

"Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik böyük bir məfhumdur. Bu sadəcə orduda xidmət etmək deyil, vətənə sədaqət, vətəni sevmək, torpağa bağlı olmaqdır".

Konstitusiyanın ümumi ruhu və məzmunu göstərir ki, müasir gənclik milli ruhda, ümumbəşəri dəyərlər zəminində, milli-dini dəyərləri və mütərəqqi ənənələri sevərək və yaşadaraq, çağdaş dünyanın qlobal çağırışlarına cavab verən şəxsiyyət kimi tərbiyələnməlidir.

Müzəffər Ali Baş Komandan, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində xalq bir yumruq kimi birləşərək Milli Ordumuzun qəhrəmanlığı nəticəsində 30 ildən artıq Ermənistan işğalında qalan Vətən torpaqlarını - doğma Qarabağı və Şərqi Zəngəzuru işğaldan azad etdi. 2023-cü il sentyabrın 19-da Azərbaycan Respublikasının Qarabağ iqtisadi rayonunda törədilən təxribatların qarşısı alınmış, Ermənistan silahlı qüvvələrinin qalıqları torpaqlarımızdan çıxarılaraq Azərbaycan Respublikası Konstitusiyasının quruluşunun bərpası məqsədilə antiterror əməliyyatına başlanılmışdır. Cəmi 23 saat davam edən və sentyabrın 20-də başa çatan əməliyyat nəticəsində Milli Ordumuz Azərbaycan Respublikasının dövlət suverenliyini tam bərpa etdi. Bununla da 2023-cü il sentyabrın 20-də bütün ölkə ərazisində qanunun aliliyinin təmin olunduğu və dövlət suverenliyinin tam bərpa olunduğu nəzərə alınaraq Prezident İlham Əliyevin 19 sentyabr 2024-cü il tarixli Sərəncamı ilə "Dövlət Suverenliyi Günü" təsis edilmişdir. Bu gün Azərbaycan Respublikasının təhsil sisteminin qarşısında duran əsas məqsəd müstəqil, suveren Azərbaycan Respublikası vətəndaşlarını kamil şəxsiyyətlər kimi formalaşdırmaqdır. Hər bir təhsil işçisi, müəllim və tərbiyəçi mövcud imkanlardan geniş istifadə etməli, millətin gələcəyi olan gəncliyin yetişdirilməsində öz töhfəsini verməlidir. Ulu Öndər deyirdi ki, təhsil millətin gələcəyi, müstəqil dövlətin təməlidir.

**Hümeyir ƏHMƏDOV,**
*Təhsil İnstitutunun Elmi-pedaqoji kadrların hazırlanması şöbəsinin müdiri, pedaqogika üzrə elmlər doktoru, professor*

# Bloger və influenserlərlə açıq dialoq formatında görüş keçirilib





Elm və Təhsil Nazirliyinin təşkilatçılığı ilə bir qrup bloger və sosial media təsirçiləri ilə ( influenser) görüş keçirilib. Açıq dialoq formatında keçirilən görüşdə nazirliyin və tabeliyində olan qurumların ictimaiyyətlə əlaqələr və kommunikasiyaya məsul əməkdaşları, eləcə də geniş izləyici kütləsinə malik olan bir qrup bloger və sosial media təsirçisi (influenser) iştirak edib.

Görüşün əsas məqsədi ictimai fikir formalaşdıran və geniş auditoriyaya təsir imkanına malik bloger və influenserləri elm və təhsil sahəsində həyata keçirilən islahatların əsas istiqamətləri, əldə olunan nəticələr və qarşıya qoyulan yeni hədəflər barədə məlumatlandırmaq, müxtəlif təhsil pillələri üzrə yenilikləri təqdim etmək, eyni zamanda fikir və təkliflərin mübadiləsi üçün açıq və konstruktiv ictimai platforma yaratmaq olub.

Görüşdə salamlama nitqi ilə çıxış edən Elm və Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin müdiri Səbuhi Rzayev bloger və influenserlərin müasir dövrdə ictimai rəyin formalaşmasında mühüm rol oynadığını bildirib. Səbuhi Rzayev elm və təhsil sahəsində həyata keçirilən islahatların cəmiyyətə düzgün, dolğun və operativ şəkildə çatdırılmasında bu platformaların əhəmiyyətini vurğulayıb, əməkdaşlığın qarşılıqlı etimada və açıq dialoqa əsaslanmasının vacibliyini qeyd edib.

Daha sonra təqdimatla çıxış edən Elm və Təhsil Nazirliyinin Strateji planlaşdırma və təhlil şöbəsinin müdiri Leyla Xəlilova Rzazadə "Azərbaycan Respublikasında 2022—2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası" çərçivəsində elm və təhsil sahəsində görülən işlər, əldə olunan nailiyyətlər və qarşıdakı dövr üçün müəyyənləşdirilən əsas hədəflər barədə ətraflı məlumat verib. Şöbə müdiri elm və təhsil sahəsində aparılan proseslərdə ictimai dəstəyin və düzgün maarifləndirmənin önəmini vurğulayıb.

Görüşdə çıxış edən bloger və influenserlər elm və təhsil sahəsində aparılan islahatlara dair, eləcə də inklüziv təhsil, müəllimlərin peşəkar inkişafı, məktəb-valideyn münasibətləri, ali təhsildə əmək bazarının tələblərinin nəzərə alınması və digər mövzular üzrə fikirlərini bölüşüblər. Eyni zamanda, bu cür dialoq mühitinin qarşılıqlı etimadı gücləndirdiyi və əməkdaşlıq imkanlarını genişləndirdiyi bildirilib.

Müzakirə formatında davam edən görüşdə iştirakçıları maraqlandıran çoxsaylı suallar cavablandırılıb, təhsil siyasətinin prioritet istiqamətləri, mövcud çağırışlar və perspektiv planlar ətrafında geniş fikir mübadiləsi aparılıb.

Görüş sonda qarşılıqlı əməkdaşlığın davam etdirilməsi və gələcəkdə oxşar platformaların təşkil olunmasının vacibliyinin vurğulanması ilə yekunlaşıb.

# "Elm və təhsil sahəsində ictimai təşəbbüslərin dəstəklənməsi" qrant müsabiqəsinin nəticələri açıqlanıb




Elm və Təhsil Nazirliyi tərəfindən 2025-ci ildə həyata keçirilən "Elm və təhsil sahəsində ictimai təşəbbüslərin dəstəklənməsi" qrant müsabiqəsinin nəticələri açıqlanıb. Müsabiqəyə ümumilikdə 107 layihə təqdim olunub. Bütün layihələr əvvəlcə texniki ekspertiza mərhələsindən keçirilib və nəticədə onlardan 99-u məzmun qiymətləndirilməsi mərhələsinə buraxılıb. Məzmun qiymətləndirilməsi mərhələsində layihələr 100 ballıq şkala ilə 9 meyar əsasında qiymətləndirilib və ən yüksək bal toplayan layihələr Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanına uyğun olaraq Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi və Gənclər Fondu ilə razılaşdırılıb. Nəticə etibarı ilə qeyri-hökumət təşkilatları tərəfindən daxil olmuş 16 layihəyə qrant ayrılıb.

# Azərbaycan Tələbə Liqasının 2025/2026 mövsümündə I dövrəyə yekun vurulub

Ali təhsil müəssisələrinin tələbələri arasında futzal idman növü üzrə Azərbaycan Tələbə Liqasının 2025/2026 mövsümü üzrə I dövrəyə yekun vurulub.

Azərbaycan Texniki Universitetinin idman kompleksində keçirilən və 14 ali təhsil müəssisəsinin komandalarının iştirak etdiyi oyunların nəticələrinə görə ən çox xal toplayan və ilk altılığa düşən Azərbaycan İdman Akademiyası, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Bakı Dövlət Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Texniki Universitetinin komandaları A qrupunda, ilk altılıqda yer almayan Bakı Mühəndislik Universiteti, Bakı Slavyan Universiteti, Milli Aviasiya Akademiyası, Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Tibb Universiteti, Bakı Ali Neft Məktəbi, Odlar Yurdu Universitetinin komandaları isə B qrupunda mübarizəni davam etdirəcəklər.

Liqanın II dövrəsinin oyunlarına tələbələrin qış imtahan sessiyasından - 2026-cı ilin fevral ayının 20-dən sonra başlanılması və 15 may tarixinədək davam etdirilməsi nəzərdə tutulur.

Qeyd edək ki, Azərbaycan Tələbə Liqası Elm və Təhsil Nazirliyi və Azərbaycan Tələbə Futbol Federasiyası İctimai Birliyinin təşkilatçılığı, Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi və Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının dəstəyi ilə keçirilir.

Liqanın keçirilməsində məqsəd ali təhsil müəssisələrinin tələbələri arasında futzal idman növünün təbliğ edilməsi, onlar arasında perspektivli idmançıların aşkar edilməsi, bu idman növünə marağın artırılması, tələbələrdən ibarət futzal üzrə yığma komandanın formalaşdırılmasından ibarətdir.



"AZƏRBAYCAN MÜƏLLİMİ"

Qəzet 1934-cü ildən çıxır

**Baş redaktor**
Sarvan İbrahimov

**Reklam və elanlar:** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1052, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan nəşriyyatı" MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya:** № 022327 **İndeks:** 0003

**Tiraj:** 36306 **Sifariş:** 2652

**Məsul növbətçi:** S.Kərimova

**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**

## Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

**aşağıda adı çəkilən kafedrada vakant vəzifəni tutmaq üçün müsabiqə**

**ELAN EDİR:**

*Aşıq sənəti kafedrası üzrə - baş müəllim - 1 yer*

Müsabiqədə kafedranın profilinə uyğun peşə-ixtisas hazırlığına, elmi ad və elmi dərəcələrə, elmi-pedaqoji təcrübəyə malik Azərbaycan Respublikası vətəndaşları, həmçinin mövcud qanunvericiliyin tələbləri gözlənilməklə xarici ölkə vətəndaşları iştirak edə bilərlər.

İddiaçılar müsabiqənin keçirilməsi üçün sənədlərini Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə göndərə bilərlər.

**Ünvan:** Bakı şəh., AZ 1065, İnşaatçılar 39
**Telefon:** 599-00-54 (daxili-100)

**REKTORLUQ**

# Etibarsız sayılır

**Bakı şəhər** 300 nömrəli tam orta məktəbin IX sinfiini 2006-cı ildə bitirmiş İsmayılov Rəşad Qeybəli oğluna verilmiş A-366408 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Göytəpə şəhər 1 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş İsgəndərov Yusif Aydın oğluna verilmiş A-456033 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qazax şəhər** 2 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2018-ci ildə bitirmiş Binnətova Aytac Vüqar qızına verilmiş C-224141 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qazax şəhər** 4 nömrəli tam orta ümumtəhsil məktəbi 2020-ci ildə bitirmiş Həsənov Asəf Araz oğluna verilmiş E-313845 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qazax rayon** Dəmiçilər kənd tam orta ümumtəhsil məktəbi 1994-cü ildə bitirmiş Səmədova Əfiqə Məmmədrza qızına verilmiş 0\47 nömrəli tam orta təhsil haqqında attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Qazax şəhər** Çaylı kənd 2 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2003-cü ildə bitirmiş Rəsulova (Carçıyeva) Lamiyə Kamran qızına verilmiş B-666323 nömrəli ümumi orta təhsil haqqında attestat və 2005-ci ildə verilmiş B-142826 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Muğanlı kənd tam orta məktəbi 2007-ci ildə bitirmiş Mirzəliyeva Rəvanə Müseyib qızına verilmiş B-456229 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 42 nömrəli tam orta ümumtəhsil məktəbi 2005-ci ildə bitirmiş Abdullayeva Gülər Vaqif qızına verilmiş A-136185 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Salyan rayon** Qarabağlı kənd 2 nömrəli tam orta ümumtəhsi məktəbi 2011-ci ildə bitirmiş Hüseynzadə Habil Qorxmaz oğluna verilmiş A-064202 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayon** Göycəli kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 1990-cı ildə bitirmiş Heydərov Nəriman Xanzadə oğluna verilmiş A-695140 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutu** tərəfindən 1975-ci ildə Məmmədova Rüxsarə Hacıvəli qızına verilmiş A-I-013599 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayon** Poylu kənd tam orta ümumtəhsil məktəbi 2005-ci ildə bitirmiş Məmmədova (Qayıbova) Nəcibə Alı qızına verilmiş B-145744 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi** tərəfindən 2002-ci ildə Məhərrəmov İntiqam Akif oğluna verilmiş A-094826 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycam Memarlıq və İnşaat Universiteti** tərəfindən 2012-ci ildə Alkış İsmail Hamdi oğluna verilmiş BC-205228 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Qobustan rayon** Ərəbşalbaş kənd tam orta ümumtəhsil məktəbi 2020-ci ildə bitirmiş Orucov Sərxan Vaqif oğluna verilmiş E-302425 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Oğuz rayon** Xaçmaz kənd 1 nömrəli tam orta ümumtəhsil məktəbi 1988-ci ildə bitirmiş Cəlilov Vüqar Fikrət oğluna verilmiş 371630 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Memarlıq və İnşaat Universiteti** tərəfindən 2023-cü ildə Əliyeva Zeynəb Səfər qızına verilmiş A-195812 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti** tərəfindən 2020-ci ildə Nəcəfzadə Rauf İnam oğluna verilmiş C-081251 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Zərdab şəhər** 3 nömrəli tam orta ümumtəhsil məktəbi 1995-ci ildə bitirmiş Ağalarova (Abdullayeva) Gündüzar Mürşüd qızına verilmiş A-121798 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ucar rayon** Qazıqumlaq kənd 2 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2013-cü ildə bitirmiş Niftəliyev Nurlan Telman oğluna verilmiş A-310769 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 177 nömrəli tam orta məktəbin IX sinfini 2020-ci ildə bitirmiş Əliyeva Atlas Xeyrulla qızına verilmiş C-349320 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 165 nömrəli tam orta ümumtəhsil məktəbi 2004-cü ildə bitirmiş Mirzəyev Roman Elman oğluna verilmiş A-114143 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universiteti** nəzdində Bakı Texniki Kollec tərəfindən 2024-cü ildə Təqizadə Çiçək İmran qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Dəllər qəsəbə tam orta məktəbi 2008-ci ildə bitirmiş Cabbarlı (Nəbiyeva) Nuranə Qəzənfər qızına verilmiş B-539554 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Eçara kənd tam orta məktəbin IX sinfini 2005-ci ildə bitirmiş Hüseynova (Abıyeva) Əfsanə Şakir qızına verilmiş 184924 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Salyan rayon** Piratman kənd tam orta ümumtəhsil məktəbi 2021-ci ildə bitirmiş Xəlilzadə Əli Abuzər oğluna verilmiş E-388401 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** Əlimərdanlı kənd tam orta ümumtəhsil məktəbi 1987-ci ildə bitirmiş Bayramov Fərəməz Qurban oğluna verilmiş AK-328756 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı şəhər** 1 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş İbayeva Aysel Kazım qızına verilmiş B-228087 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Balakən şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 1992-ci ildə bitirmiş Mehdiyev Rəhman Zülfüqar oğluna verilmiş 610065 nömrəli ümumi orta təhsil haqqında attestat (şəhadətnamə) itdiyi üçün etibarsız sayılır.

**Şəki rayon** Turan qəsəbə tam orta ümumtəhsil məktəbi 2012-ci ildə bitirmiş Xəlilova (Namazova) Sumayə Sərkar qızına verilmiş A-172804 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki şəhər** 19 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş İsazadə Mehin Akif qızına verilmiş A-431887 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar rayon** Zəhmətabad kənd tam orta ümumtəhsil məktəbi 2006-cı ildə bitirmiş Güllərova Bəsti Bəyzadə qızına verilmiş A-334638 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 244 nömrəli tam orta ümumtəhsil məktəbi 2012-ci ildə bitirmiş Əliyeva (Şıxbalayeva) Aytəkin Yaşar qızına verilmiş A-102808 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 100 nömrəli tam orta məktəbin IX sinfini 2025-ci ildə bitirmiş Əlili Məryəm Elşən qızına verilmiş F-033131 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi rayon** Hındarx qəsəbə 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2021-ci ildə bitirmiş Səfiyev Nadir Emin oğluna verilmiş E-403930 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göyçay Kənd Təssərüfatı Mexanikləşdirmə və Elektrikləşdirmə Texnikumu** tərəfindən 1981-ci ildə Qarayev Elçin Qara oğluna verilmiş BT-29219 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Universiteti** tərəfindən 2025-ci ildə Namazlı Akşin Rasim oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Dəllər qəsəbə tam orta məktəbi 2005-ci ildə bitirmiş Quliyeva ( Ələsgərova) Röyalə İlqar qızına verilmiş B-176902 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar rayon** Yuxarı Cürəli kənd tam orta ümumtəhsil məktəbi 1991-ci ildə bitirmiş Bayramov Qədir Baxışəli oğluna verilmiş A-135579 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2019-cu ildə Məmmədova Leyla Akif qızına verilmiş C-044025 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Laçın rayon** 37 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Rəhimova Zeynəb Məhiş qızına verilmiş E-153433 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 212 nömrəli tam orta məktəbi 1992-ci ildə bitirmiş Ələkbərova Yeganə Rafiq qızına verilmiş A-201777 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Salyan rayon** Dayıkənd kənd tam orta məktəbin IX sinfini 2005-ci ildə bitirmiş Cəfərova Səidə İntiqam qızına verilmiş 230418 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Baxçakürd kənd tam orta ümumtəhsil məktəbi 1975-ci ildə bitirmiş Həsənov Ağababa Həmid oğluna verilmiş A3-772276 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Balakən rayon** Hənifə kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 1997-ci ildə bitirmiş Salmanova Günel Aslan qızına verilmiş ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Dövlət Universiteti** tərəfindən 2024-cü ildə Quliyev Novruz Məhəbbət oğluna verilmiş C-246873 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 253 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Qurbanova Nərmin Möhübbət qızına verilmiş B-497045 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 253 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Qurbanov Murad Möhübbət oğluna verilmiş A-015794 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 12 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Həmidov Əşrəf Azad oğluna verilmiş A-125346 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 132-134 nömrəli təhsil kompleksini 2022-ci ildə bitirmiş İsmayılov Cəlal Natiq oğluna verilmiş E-471413 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 11 nömrəli inteqrasiya təlimli internat tipli ümumtəhsil məktəbi 2016-cı ildə bitirmiş Rzayev Namiq Natiq oğluna verilmiş D-005633 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Mahmudkənd kənd tam orta məktəbi 2005-ci ildə bitirmiş Məmmədova Kənarə Akif qızına verilmiş B-159232 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Maxta kənd tam orta məktəbi 1999-cu ildə bitirmiş İbrahimova (Qurbanova) İlhamə Zeynalabdin qızına verilmiş A-286564 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Siyaqut kənd tam orta məktəbi 1997-ci ildə bitirmiş Talıbova Aynurə Şirzad qızına verilmiş A-120373 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Kərimbəyli kənd tam orta məktəbi 2004-cü ildə bitirmiş Abbasova (Abdullayeva) Aysel Zahid qızına verilmiş A-748603 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 114 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Hüseynov Cavid Sanil oğluna verilmiş B-597477 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 63 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 1996-cı ildə bitirmiş Məmmədova Səidə Qurbanəli qızına verilmiş B-073379 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Gədəbəy rayon** Miskinli kənd 1 nömrəli tam orta ümumtəhsil məktəbi 1982-ci ildə bitirmiş Quliyev Ədalət Dəmir oğluna verilmiş 685433 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Lerik rayon** Livədirqə kənd tam orta məktəbin IX sinfini 2003-cü ildə bitirmiş Zaidova Könül Mirilham qızına verilmiş B-581298 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə (attestat) itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Aqrar Universiteti** tərəfindən 2017-ci ildə Axund-zadə Hacı Bəxtiyar oğluna verilmiş A-129861 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2023-cü ildə Mahmudov Vasif Hasil oğluna verilmiş C-208122 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Odlar Yurdu Kolleci** tərəfindən 2019-cu ildə Məmmədli Əsra Qurban qızına verilmiş AA-130787 nömrəli subbakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** 42 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Mirzəyev Rasim Mətləb oğluna verilmiş B-149130 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 245 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Ramixanova (Qubatova) Sahibə Valeh qızına verilmiş B-286719 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kəlbəcər rayon** 16 nömrəli tam orta məktəbin IX sinfini 2002-ci ildə bitirmiş Sultanova Ramilə Ələsgər qızına verilmiş 566056 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.